## Proses vaxt tələb edir

Reznikov: Ukrayna hücuma keçməyə bir neçə aydan sonra hazır olacaq



**Ukrayna hücuma keçməyə bir neçə aydan sonra hazır olacaq.**

APA xəbər verir ki, bunu Ukrayna müdafiə naziri Aleksey Reznikov "Ukrinform"a müsahibəsində deyib.

"Hərbi texnikanın Ukraynaya çatdırılması məsələsinin təfərrüatları səslədirilib. Texnikanın ölkəyə tədarükü ilk növbədə Ukrayna hərbçilərinin təlim müddəti ilə bağlıdır. Bu proses vaxt tələb edir və biz bir neçə aydan sonra tam hazır olacağıq", - nazir qeyd edib.



## Xəzər dənizində zəlzələ baş verib

**Fevralın 15-də Xəzər dənizində zəlzələ baş verib.**

Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən bildirilib ki, yerli vaxtla saat 15:42-də qeydə alınan zəlzələnin ocağı 60 kilometr dərinlikdə yerləşib.

Zəlzələnin maqnitudası 3.1-ə bərabər olub.


❒ № 29 (5790) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 16 fevral 2023-cü il (cümə axşamı)




## Türkiyədə zəlzələdə həlak olan 4 vətəndaşımız dəfn olunub

4 tələbənin cənazəsi isə bu gün Azərbaycana yola salınacaq

**Türkiyədə zəlzələ nəticəsində həlak olmuş 4 Azərbaycan vətəndaşı ölkəyə gətirilərək dəfn olunub, 4 azərbaycanlı tələbənin cənazəsi isə 16 fevral tarixində Türkiyədən Azərbaycana yola salınacaq.**

Bu barədə Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Ayxan Hacızadə məlumat verib.

Onun sözlərinə görə, cənazələrin ölkəyə yola salınmasının saatı konkret deyil: "İlkin versiya kimi 02:00 nəzərdə tutulub, amma aydın məsələdir ki, gecikmələr də ola bilər".

*Qeyd edək ki, fevralın 6-sı səhərə yaxın və ondan 9 saat sonra Türkiyədə baş vermiş zəlzələ nəticəsində 10 Azərbaycan vətəndaşı həlak olub.*

## Ömər Eldarov vəzifəsindən azad edildi

Natiq Əliyev yeni rektor təyin olunub





**Prezident İlham Əliyev Ö.H.Eldarovun Azərbaycan Rəssamlıq Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında sərəncam verib.**

Sərəncama əsasən, Ömər Həsən oğlu Eldarov Azərbaycan Rəssamlıq Akademiyasının rektoru vəzifəsindən azad edilib.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

Prezident İlham Əliyev N.K.Əliyevin Azərbaycan Rəssamlıq Akademiyasının rektoru təyin edilməsi haqqında da sərəncam imzalayıb.

Sərəncama əsasən, Natiq Kamal oğlu Əliyev Azərbaycan Rəssamlıq Akademiyasının rektoru təyin edilib.

## Stoltenberq dəstək üçün Türkiyəyə gedir

İsveç və Finlandiyanın NATO-ya üzvlüyü də müzakirə ediləcək




**NATO Baş katibi Yens Stoltenberq 15-16 fevral tarixlərində Türkiyəyə səfər edəcək.**

APA TRT Haber-ə istinadən xəbər verir ki, səfər zamanı NATO rəhbəri zəlzələ fonunda Türkiyəyə hərbi alyansın dəstəyini çatdıracaq.

O, Ankarada Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla danışıqlar aparacaq. O, Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu ilə də görüşəcək. Stoltenberqin zəlzələ bölgəsinə səfər edəcəyi də gözlənilir.

Eyni zamanda, İsveç və Finlandiyanın NATO-ya üzvlüyü də müzakirə ediləcək.

# Sərhədlər açılır

Mirzoyanın Türkiyəyə səfəri təsadüfi və səbəbsiz deyil




## Türkiyə-Ermənistan münasibətlərinin normallaşması Bakını qətiyyən narahat etmir

**Türkiyəyə səfər etmiş Ermənistan xarici işlər naziri Ararat Mirzoyan türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə Ankarada təkbətək görüş keçirib. Təkbətək görüşdən sonra iki tərəf geniş tərkibdə danışıqlar aparıb, daha sonra nazirlər bəyanatla çıxış ediblər.**

Ermənistan XİN başçısı Ararat Mirzoyan zəlzələdən ən çox zərər görmüş və ermənistanlı axtarış-xilasetmə qrupunun üzvlərinin fəaliyyət göstərdiyi Adıyaman vilayətinə də yollanıb.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu erməni həmkarı Ararat Mirzoyanla mətbuat konfransı zamanı deyib ki, Mirzoyanla normallaşma məsələsində hansı addımları ata biləcəkləri danışıblar. Onun sözlərinə görə, bunlardan biri də Ermənistanla Türkiyə arasında tarixi İpək yolu körpüsünün bərpasıdır: "Bundan başqa, sərhəd-buraxılış məntəqəsinə aparan yolların bərpası ilə bağlı addımlar atmağı düşünürük".

(səh.3)

## 1600-dən çox bələdiyyənin bir uşaq bağçası yoxdur

Nazir müavini deyib ki, qəbiristanlıqlar bələdiyyələrə verilməlidir



**Dünən Milli Məclisin Regional məsələlər komitəsinin iclasında "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik (2022-ci il üzrə) məruzə" müzakirəyə çıxarılıb.**

Vurğulanıb ki, il ərzində yerli büdcə vəsaitlərinin səmərəli istifadə olunması, bələdiyyə əmlakının idarə edilməsi sahəsində qanunçuluğun və şəffaflığın təmin edilməsi, korrupsiyaya və digər hüquqpozmalara şərait yaradan halların qarşısının alınması üzrə inzibati nəzarət qaydasında tədbirlər görülüb.

(səh.3)




## Tokayev əvvəlki sistemin üzərindən qalın xətt çəkir

Nazarbayev və onun idarəetmə sistemi ilə bağlı sərt addımların atılmasının səbəbi budur

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbaşı haqqında" qanunu qüvvədən salıb. Bu barədə o, Konstitusiya qanununu imzalayıb.**

Bundan əvvəl sənəd Parlamentin hər iki palatasının birgə iclasında da təsdiqlənib. Məlumat üçün deyək ki, "Birinci prezident haqqında" qanunda eks-prezident Nursultan Nazarbayev və onun ailə üzvləri üçün bir sıra imtiyazlar var idi.

(səh.4)

## Tibb Universitetinin tələbəsi Türkiyədəki zəlzələdə həlak olub





**Azərbaycan Tibb Universitetinin (ATU) tələbəsi Türkiyədəki zəlzələdə həlak olub.**

Bu barədə "Report"a universitetdən məlumat verilib.

Qeyd olunub ki, fevralın 6-da Türkiyədə baş verən dağıdıcı zəlzələdə Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinin V kurs tələbəsi Nazif Abdulmelik oğlu Toprak vəfat edib.

*Bundan əlavə, zəlzələdə faciəli şəkildə həyatını itirən azərbaycanlı tələbələrdən biri - Gündüz Nəzərzadə də ATU-nun məzunu olub. 2021-ci ildə universitetimizin Əczaçılıq fakültəsindən məzun olan G.Nəzərzadə Malatyada İnönü Universitetində magistratura təhsili alırdı.*

## Bakıda su onsuz da qənaətlə işlədilir

Suyun təzyiqinin azaldılması abonentlərə əlavə problemlər yaradacaq



**Bakıətrafı ərazilərə içməli suyun verilməsi qrafikində dəyişiklik edilib. Bu barədə "Azərsu" ASC istehlakçılara xəbərdarlıq edib.**

"Azərsu" ASC-də sudan səmərəli və qənaətlə istifadə edilməsinə, bu sahədə təhlillərin aparılmasına dair xüsusi iclas keçirilib. İclasdan sonra müvafiq təhlil və araşdırmalar aparılıb.

(səh.6)



## Nəhayət, BMT vəziyyəti anlayacaq

Erməni uşaqların müharibəyə cəlb olunması təəccüblü deyil

(səh.3)



## Məqsəd əhalidən pul qoparmaqdı

Cəmiyyət "selofan"sız günlərə hazır deyil

(səh.5)

# Qarabağdakı proseslər diqqət mərkəzindədir

## Mümkündür ki, prezidentlər Bakı-İrəvan məktublaşmasının mətnini müzakirə edib



Prezident İlham Əliyev fevralın 14-də Rusiya Prezidenti Vladimir Putinə telefonla zəng edib. Telefon söhbəti zamanı iqtisadi-ticari əməkdaşlığın, o cümlədən energetika və nəqliyyat sahələrində birgə layihələrin həyata keçirilməsi perspektivləri geniş müzakirə olunub. Cənubi Qafqaz regionunda cari vəziyyət barədə də ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin təmin olunması məqsədilə ardıcıl tədbirlərin görülməsinin əhəmiyyəti qeyd edilib. Bu kontekstdə Rusiya, Azərbaycan və Ermənistan arasında yüksək səviyyədə əldə olunmuş müvafiq razılaşmaların qeyd-şərtsiz yerinə yetirilməsinin vacibliyi vurğulanıb. Təmasların müxtəlif formatlarda davam etdiriləcəyi qeyd olunub.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, dövlət başçısı İlham Əliyevin rusiyalı həmkarı V.Putinə indi zəng etməsi Bakı-İrəvan və Bakı-Moskva xəttindəki proseslər, o cümlədən, Qarabağda baş verənlərdən qaynaqlanır.** Analitik vurğulayıb ki, zəngdən öncə dövlət başçısı İlham Əliyev Rusiyanın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi Bakıda qəbul etdi. Xovayevin gəlişinin iki mümkün səbəbi ola bilər: "Bakı və İrəvan arasında sülh mətni üzrə məktublaşma davam edir və Moskva bu prosesdən məlumatlı olmaq istəyir. İstisna deyil ki, Rusiya sülh danışıqlarına dair müəyyən təkliflər də irəli sürür. Bu təkliflərin tərəflərin liderlər səviyyəsində yeni görüşünün təşkili ilə bağlı olması mümkündür. Ölkə rəhbəri İlham Əliyev həm Bakı-İrəvan məktublaşması, həm də mümkün təklifləri Putinlə müzakirə edib. Bu zəng eyni zamanda, Bakı-Moskva xəttində müşahidə olunan proseslərlə əlaqəlidir. Ruslar Qərb qüvvələrini bölgəyə gətirən Ermənistan qarşısında Azərbaycanda münasibətləri sıxlaşdırmaq niyyətindədir və baş konsulluğun açılmasını gündəmə gətirirlər".

*Ekspertə görə, mümkün versiyalardandır ki, dövlət başçısı İlham Əliyev Putinlə Qarabağda baş verənləri, xüsusilə Ruben Vardanyanın Moskvaya gedişi və dönüşü məsələsini də müzakirə edib:* "Rusiya Rubeni vətəndaşlıqdan çıxarmaqla məsuliyyəti üzərindən atsa da, onun Qarabağdan çıxışı və girişinə görə sülhməramlılar cavabdehdir. Bakıdan Moskvaya edilən zəngin Vardanyanın qayıdışından sonra baş verməsi Əliyevin bu məsələni gündəmə gətirdiyi ehtimalını önə çıxarır".

**İsmayıl Qocayev**




# Ceyhun Bayramov ABŞ Dövlət katibinin köməkçisi ilə danışıb

## Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə danışıqların perspektivləri barədə müzakirə aparılıb

**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatlarının Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında növbəti telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, tərəflər regionda cari vəziyyət və Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə danışıqların perspektivləri barədə müzakirə aparıblar.

Nazir Ceyhun Bayramov üçtərəfli Bəyanata uyğun olaraq Azərbaycanın Laçın yolunda yalnız vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin təhlükəsizliyinə zəmanət verdiyini, lakin Ermənistan tərəfindən Laçın yolunun qeyri-qanuni iqtisadi fəaliyyətlər, erməni hərbçilərinin rotasiyaları, minaların daşınması üçün sui-istifadə edildiyini bildirib. Laçın yolunda etiraz aksiyaçılarının legitim tələblərinin hələ də yerinə yetirilmədiyini qeyd edib. Bölgədə guya "gərgin humanitar" vəziyyət yarandığı barədə iddiaların heç bir əsasının olmadığını vurğulayıb.

Nazir, həmçinin Ermənistanın sülh sazişi üzrə danışıqlar prosesi üzrə manipulyasiyalara yol verdiyini diqqətə çatdırıb.

Tərəflər telefon danışığı zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Avropa İttifaqı İrana qarşı sanksiyalar hazırlayır

**Avropa İttifaqı İrana qarşı yeni sanksiyaların tətbiq edilməsi haqqında sənəd hazırlayır.**

AZƏRTAC "Euronews" kanalına istinadla bildirir ki, bu barədə Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen məlumat verib. O qeyd edib ki, İran İslam İnqilabı Keşikçiləri Korpusu və ona bağlı təşkilatlara qarşı iqtisadi sanksiyalar tətbiq olunacaq.

Avropa Komissiyasının rəhbəri diqqətə çatdırıb ki, İran Rusiyaya yüzlərlə pilotsuz uçan aparat (PUA) verib ki, bunlar da Ukraynaya qarşı istifadə olunur.

# AFAD Türkiyədəki zəlzələlərin Yer qabığında dəyişikliyə səbəb olduğunu açıqlayıb

**Türkiyədə baş vermiş zəlzələlərdən sonra qeydə alınan afterşokların sayı açıqlanıb.**

APA xəbər verir ki, bu barədə AFAD nümayəndəsi Orxan Tatar məlumat verib.

Onun sözlərinə görə, zəlzələlərdən sonra 3858 afterşok qeydə alınıb.

O qeyd edib ki, iki dəqiqəyə qədər davam edən güclü zəlzələlər zamanı yer qabığında 7 m 30 sm-ə qədər dəyişiklik olub.

# Dağıntılar altında qalan Azərbaycan vətəndaşı var



**Kahramanmaraşda dağıntılar altında qalan Azərbaycan vətəndaşı var.**

Bunu APA-nın Türkiyə ezam olunan müxbirinə açıqlamasında Kahramanmaraş Sütçü İmam Universitetinin azərbaycanlı müəllimi Həmran Əmirli deyib.

O bildirib ki, şəhərin mərkəzində və Elbistan deyilən rayonda iki nəfərin cəsədi tapılıb: "Onların cənazəsi Xarici İşlər Nazirliyi tərəfindən ölkəmizə göndərilib. Hələ bir vətəndaşımız da dağıntılar altından çıxarılmayıb. Bu gün qızı ilə danışdım, Lida Qocayevə adlı qadındır. Ailə üzvləri də hazırda burdadır, onun axtarışları davam edir".

Həmran Əmirli qeyd edib ki, ümumilikdə Kahramanmaraşda 50-60-a yaxın azərbaycanlı tələbə, 10 yaxın ailə olub: "Zəlzələdən sonra onların hər biri ilə əlaqə saxlanılıb. Tələbələr və bəzi ailələr səfirliyimiz tərəfindən Kahramanmaraşdan təxliyə edilib".

Azərbaycanlı müəllim deyib ki, Kahramanmaraş Sütçü İmam Universitetinin tələbəsi Göyçək Baxşəliyeva dağıntıya məruz qalmış binanın altından 30 saatdan sonra sağ çıxarılıb, təcili olaraq xəstəxanaya aparılıb: "Onun da müalicəsi şəhərdə olan xəstəxanaların birində davam etdirilir".

# "Vətəndaş cəmiyyətinin üzərinə çox böyük işlər düşür"

## Əziz Ələkbərli: "Bütün qurumlar Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına öz töhfəsini verməlidir"




**Dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının bir sıra nümayəndələri ilə görüşü zamanı səsləndirdiyi tarixi fikirlərlə həyatımızda yeni bir mərhələyə qədəm qoyuldu.**

Bu çıxışdan sonra son 200 ildə tarixi torpaqlarımızdan qovulan soydaşlarımızın öz ata-baba yurdlarına qayıdışı prosesinə yeni start verildi. Ölkə Prezidentinin qarşımıza qoyduğu digər məsələlərdən biri də Qayıdış Konsepsiyasının hazırlanması idi ki, artıq həmin konsepsiya ictimaiyyətə təqdim olunub. Bu, təkcə Qərbi azərbaycanlıların yox, eyni zamanda, 60 milyona yaxın azərbaycanlının məsələsidir. Bu baxımdan, Azərbaycanda olan bütün qurumlar bu məsələyə öz töhfəsini verməlidir. Çünki bu, hər birimizi düşündürən ümummilli məsələdir.

Bunu jurmalistlərə açıqlamasında Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri Əziz Ələkbərli deyib.

Onun sözlərinə görə, soydaşlarımızın öz yurdlarına qayıtması məsələsində ölkədəki qurumlarla yanaşı, ölkə xaricindəki Azərbaycanla bağlı bütün təşkilatlar öz dəstəyini verməlidir:

"Həmçinin, vətəndaş cəmiyyətinin üzərinə çox böyük işlər düşür. Bu gün QHT Agentliyi ilə birgə keçirilən görüşümüzdə də əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə edəcəyik və gələcəkdə bu istiqamətdə atacağımız addımlarla bağlı qərarlar qəbul edəcəyik".

İcma sədri bildirib ki, bu yaxınlarda Qərbi Azərbaycana Qayıdış Konsepsiyasına İctimai Dəstəklə bağlı qrant müsabiqəsi elan olunub: "Belə hesab edirik ki, həmin müsabiqənin həyata keçirilməsi bu sahədə atılmış mühüm addımlardan biri olacaq".

# Valideyn nəzarət mexanizmi inkişaf etməlidir

## "Məktəblərimizdə vətəndaş institutu yox səviyyəsindədir"



**49 nömrəli "İntellekt" məktəb-liseyində müəllim valideynlərdən pul tələb edib. Bu barədə sosial şəbəkələrdə məlumat paylaşılıb. Bildirilib ki, liseyin ingilis dili müəllimi Könül Həsənova rəhbərlik etdiyi sinfin valideyn qrupuna səs ataraq pul istəyib: "Mən pul üçün məcbur etmirəm. Amma siz bilirsiniz ki, şagirdlər istədikləri vaxt dərsdən qaçır, istədikləri vaxt qalırlar. Bunlara nə hesabına hörmət olunduğunu nəzərə almırsınız? Gücünüz çatan məbləği verin və siyahı tutulsun".**

O, bütün siniflərin pul verdiyini qeyd edib.

Məsələ barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən cavab olaraq qeyd edilib ki, paytaxtdakı 49 nömrəli "İntellekt" məktəb-liseyində valideynlərdən vəsait tələb olunmasına dair səs yazısı ilə bağlı məlumat bir neçə gün öncə Bakı Şəhəri üzrə Təhsil İdarəsinə daxil olub: "Bununla əlaqədar müvafiq araşdırma aparılıb. Araşdırmanın nəticələrinə müvafiq olaraq görüləcək qanunauyğun tədbirlər haqqında əlavə məlumat veriləcək. Qeyd edək ki, məktəbin fəaliyyətinə uyğun olmayan və müəllimin nüfuzuna xələl gətirən hallara qarşı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlərin görülməsi hər zaman diqqət mərkəzində saxlanılır".

**Səbəblərlə bağlı "Şərq"ə danışan təhsil üzrə ekspert Elmin Nuri bildirib ki, müəllimin birbaşa belə bir istəklə çıxış etməsi qəti yolverilməzdir. Onun sözlərinə görə, bu, bir çox mətləblərə aydınlıq gətirmiş olacaq:** "Ən birinci amil, bu gün məktəblərdə vətəndaş nəzarəti institutunun formallığı, fəaliyyətinin sıfıra bərabər olmasıdır. Məktəblərdə vətəndaş nəzarəti mexanizmini yerinə yetirməyə borclu olan valideyn komissiyaları özfəaliyyət proqramının tam əksini edir. Onların əsas işi müxtəlif təqvim günlərində müəllimlər üçün pul toplamaq, ad günləri və bayramlarını mütləq mənada təbrik etmək üçün qeyri-loyal addımların təşkilatçısı olmaqdır. Görün, vəziyyət nə yerə çatıb ki, müəllim birbaşa özü valideynlərdən ibarət sosial şəbəkə qrupuna rüşvət istəyi ilə bağlı yazır və bunu adi, sıradan hadisə kimi hallandırır. Halbuki həmin müəllim bu addımına görə öncə həmin vatsap qrupunda olan valideynlərdən, onların həyata keçirəcəyi ictimai qınaqdan çəkinməli idi. Müəllim bu gün pul tələb etdiyi valideynin qarşısında əslində öhdəlik daşıyan şəxs olduğunun fərqində deyil. Məktəblərimizdə vətəndaş institutu yox səviyyəsindədir. Suala cavab olaraq deyə bilərəm ki, öncə bu məsələ öz həllini tapmalıdır".

> "Bu kimi hallarda töhmət yox, cəza tətbiq olunmalı, müəllim cinayət tərkibli əməlinə görə qanun qarşısında da cavab verməlidir"

**Ekspert onu da əlavə edib ki, bu gün orta ümumtəhsil müəssisələrində obyektivlik və ədalətlilik meyarlarını rəhbər tutan valideyn nəzarət mexanizmi inkişaf etməli, istər təhsilalanlar, istərsə də təhsilverənlər tərəfindən yaranan qayda pozuntularına onlar tərəfindən anında reaksiya verilməlidir:** "Bakı Şəhəri üzrə Təhsil İdarəsinin məsələ ilə bağlı mediaya açıqlamasında da bildirilir ki, hadisəyə qanunvericilik çərçivəsində qiymət veriləcək və hüquqi addım atılacaq. Amma hüquqi addımla yanaşı, ictimai nəzarətin də gücləndirilməsinə xüsusi ehtiyac var. Bunun üçün də valideyn komissiyaları yenidən və tam fərqli qaydalar əsasında formalaşmalıdır. Yeni tərkib bayramlarda pul yığımlarından tutmuş, məktəblərdə bullinq və mobinq məsələlərinə, şagirdlərin davranış pozuntuları və onların səbəb olacağı neqativlərə xüsusi nəzarət etməlidirlər. Qanunvericilik tələbinə əsasən, məktəblərdə rüşvət alan müəllimə əsasən töhmət və şiddətli töhmət verməklə məsələ qapadılır. Lakin bu kimi hallarda töhmət yox, cəza tətbiq olunmalı, müəllim cinayət tərkibli əməlinə görə qanun qarşısında da cavab verməlidir. Çünki o qanuna tabe olmalı bir vətəndaş kimi hüquqlarından kənar hərəkət etməklə yanaşı, müəllim və məktəbin nüfuzunu da aşağı salmış olur".

**Şərqiyyə Nəbi**

# Azərbaycandan Türkiyəyə 20 müasir modul ev göndərilib

## Göndərilən 1 və 2 otaqlı modul tipli evlərdə 10-12 nəfərin yaşaması üçün lazımi şərait var







**Türkiyədə zəlzələdən zərər çəkmiş insanlara dəstək məqsədilə Goranboy, Şirvan, Mingəçevir, Cəlilabad, Kürdəmir və Tərtər icra hakimiyyətlərin təşəbbüsü ilə Bakıda hazırlanmış 20 müasir modul tipli ev bu gün qardaş ölkəyə yola salınıb.**

Göndərilən 1 və 2 otaqlı modul tipli evlərdə 10-12 nəfərin yaşaması üçün lazımi şərait var.

Azərbaycan Respublikasının şəhər və rayon icra hakimiyyətləri tərəfindən Bakı şəhərində sifariş olunmuş 90 ədəd müasir modul tipli ev hazırlanaraq mərhələli şəkildə Türkiyəyə göndərilir.

*Qeyd edək ki, fevralında 13-də Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən 4 modul ev göndərilib. Həmçinin, icra hakimiyyətləri tərəfindən fəlakətin ilk günlərindən ziyan çəkmiş əhaliyə lazım olan isti paltar, yataq dəstləri, müxtəlif ərzaq və sənaye məhsulları, dərman preparatları, qızdırıcılar, generatorlar, çadırlar alınaraq qardaş ölkəyə göndərilir. İndiyədək 57 şəhər və rayon icra hakimiyyəti tərəfindən təşkil olunan humanitar yardım Türkiyə Respublikasının Kahramanmaraş, Malatya, Adıyaman və digər bölgələrinə yola salınıb. Şəhər və rayon icra hakimiyyətləri tərəfindən təbii fəlakət bölgəsinə humanitar yardımların göndərilməsi bundan sonra da davam etdiriləcək.*



# Sərhədlər açılır

## Mirzoyanın Türkiyəyə səfəri təsadüfi və səbəbsiz deyil

**Türkiyəyə səfər etmiş Ermənistan xarici işlər naziri Ararat Mirzoyan türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə Ankarada təkbətək görüş keçirib. Təkbətək görüşdən sonra iki tərəf geniş tərkibdə danışıqlar aparıb, daha sonra nazirlər bəyanatla çıxış ediblər. Ermənistan XİN başçısı Ararat Mirzoyan zəlzələdən ən çox zərər görmüş və ermənistanlı axtarış-xilasetmə qrupunun üzvlərinin fəaliyyət göstərdiyi Adıyaman vilayətinə də yollanıb.**

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu erməni həmkarı Ararat Mirzoyanla mətbuat konfransı zamanı deyib ki, Mirzoyanla normallaşma məsələsində hansı addımları ata biləcəklərini danışıblar. Onun sözlərinə görə, bunlardan bir də Ermənistanla Türkiyə arasında tarixi İpək yolu körpüsünün bərpasıdır: "Bundan başqa, sərhəd-buraxılış məntəqəsinə aparan yolların bərpası ilə bağlı addımlar atmağı düşünürük".

Çavuşoğlu, Ermənistanın zəlzələdən sonra ölkəsinə dəstək verdiyini və həmrəylik nümayiş etdirdiyini vurğulayıb: "Zəlzələdən dərhal sonra Ermənistan ölkəmizə 28 nəfərlik axtarış-xilasetmə heyəti göndərdi. Eyni zamanda Ermənistan Türkiyənin zəlzələ bölgəsinə 100 tonluq humanitar yardım göndərdi. Və bugünkü görüşümüzdə əlavə yardımlar da göndəriləcəyini bildirdi". Mövlud Çavuşoğlu deyib ki, Ermənistan bu çətin günümüzdə Türkiyəyə dostluq əlini uzatdı, həmrəylik nümayiş etdirdi: "Cənubi Qafqazda normallaşma prosesi davam edir. Bu gün ortaya qoyduğumuz iş birliyi anlayışının bu məsələyə dəstək verəcəyinə inanıram. Eyni zamanda Ermənistanın Azərbaycanla münasibətlərinin normallaşması bölgəmizdəki sabitliyə töhfə verəcək". Çavuşoğlunun sözlərinə görə, Ermənistanla quru yollarının açılması məsələsi gündəmdədir: "Bu gün bu barədə də danışdıq".

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan hökumət adından Türkiyə xalqına və hökumətinə başsağlığı verib. Mizroyan Ermənistanın da 1980-ci illərdə ağır zəlzələ faciəsi ilə üzləşdiyini xatırladıb: "Bu faciənin nə olduğunu bilirik və bu ağrı bizə yad deyil". O, Çavuşoğlunun erməni xilasedicilərin fəaliyyəti ilə bağlı sözlərinə görə təşəkkür edib. Mirzoyan diqqətə çatdırıb ki, iki ölkə arasında sərhəd 30 ildən sonra ilk dəfə açılıb və Ermənistan buradan Türkiyəyə humanitar yardım göndərib: "Dünən axşam da humanitar yardımın ikinci hissəsini yola saldıq və o, tezliklə zəlzələ bölgəsinə, Adıyamana çatacaq". Ermənistan xarici işlər naziri vurğulayıb ki, səfərinin məqsədi bu çətin anda Türkiyə ilə həmrəylik nümayiş etdirməkdir: "Regionda sülh üçün, eyni zamanda Türkiyə ilə münasibətlərin normallaşması, diplomatik münasibətlərin qurulması ilə bağlı Ermənistan hökumətinin hazırlığını bir daha vurğulamaq istəyirəm".

### Türkiyə-Ermənistan münasibətlərinin normallaşması Bakını qətiyyən narahat etmir

**Politoloq Turan Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Mirzoyanın Türkiyəyə səfəri təsadüfi və ya səbəbsiz deyil. Xüsusilə də Türkiyədə baş verən təbii fəlakət sonrası bu səfər diqqət çəkir. Analitikə görə, rəsmi İrəvan faktiki olaraq Türkiyədə baş verən təbii fəlakətdən öz maraqları üçün istifadə etməyə çalışır:** "Bunu istər hadisədən sonra rəsmi İrəvanın əraziyə göndərdiyi xilasetmə qrupu və humanitar yardımlar, istərsə də 35 ildən sonra Ermənistan-Türkiyə sərhədində yerləşən Marqara-Alican sərhəd-keçid məntəqəsinin açılması təsdiqləyir. Xüsusilə Türkiyə Ermənistanla sərhədinin humanitar məqsədlər üçün açılması Ermənistanın Türkiyə ilə münasibətlərini normallaşdırmaq üçün ümidləri artırdı. İrəvan faktiki olaraq humanitar məqsədlər üçün olsa belə iki ölkə arasında sərhəd məntəqəsinin açılmasına nail oldu və hazırda bunun davamlı olması üçün səylərini artırır. Təsadüfi deyil ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ötən gün açıqlamasında qeyd etdi ki, "Ermənistan tərəfi hər an Türkiyə ilə sərhədi açmağa hazırdır". Qriqoryanın bu açıqlamasından sonra Mirzoyanın Türkiyəyə səfər etməsi ondan xəbər verir ki, rəsmi İrəvan Türkiyə ilə münasibətləri normallaşdırmaq, eyni zamanda iki ölkə arasında sərhədlərin açılmasına çalışır. Hazırda belə bir yanlış yanaşma var ki, Türkiyə-Ermənistan yaxınlaşması Bakıda məmnuniyyətlə qarşılanmır. Bu həm doğru, həm də yanlış yanaşmadır. Məsələ ondadır ki, bu düşüncə daha çox Azərbaycan ictimaiyyətində hakim olan fikirdir. Lakin rəsmi Bakı bütövlükdə Ermənistan-Türkiyə yaxınlaşmasına, ya da iki ölkə arasında münasibətlərin normallaşmasına qarşı deyil. Hətta Prezident İlham Əliyev bu məsələ ilə bağlı açıq şəkildə deyib ki, Azərbaycan Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasına müsbət baxır. Onsuz da Türkiyə bu məsələdə maksimum dərəcədə Azərbaycanın mövqeyini nəzərə alır və alacaq. Bu mənada Türkiyə-Ermənistan münasibətlərinin normallaşması Ankara və Bakının regionda mövqeyini daha da gücləndirə bilər. Məsələ ondadır ki, hazırda Ermənistan uğrunda regionda Qərb və Rusiya arasında kəskin mübarizə gedir. Bu mübarizədən kənarda qalan yeganə güc isə Türkiyədir. Faktiki olaraq Türkiyənin bu gün Ermənistana heç bir təsir gücü yoxdur".

**T.Rzayevə görə, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması Ankaranın İrəvana qarşı təzyiq rıçaqlarından istifadə imkanlarını artırır:** "İki ölkə arasında münasibətlərin normallaşması ilk etapda siyasi və iqtisadi sferanı əhatə edəcək. Sərhədlərin açılması isə öz növbəsində türk şirkətlərinin Ermənistana, erməni işçilərin isə Türkiyəyə axın etməsi ilə nəticələnəcək. Xüsusilə türk şirkətlərinin Ermənistan bazarında pay sahibi olması Ankaranın bu ölkədə iqtisadi varlığından xəbər verəcək. Onsuz da zəif və xarici ianələrdən asılı olan Ermənistan iqtisadiyyatı üçün türk şirkətləri yeni nəfəs deməkdir. Türk şirkətlərinin Ermənistan bazarında çəki qazanması isə öz növbəsində gələcəkdə bu ölkənin siyasətinə təsir etmək deməkdir. Ermənistanın rus asılılığından xilas olub Qərbə inteqrasiya etməsi üçün Türkiyədən başqa alternativi yoxdur. Bunu İrəvan da yaxşı bilir. Bu mənada Türkiyə-Ermənistan münasibətlərinin normallaşması, sərhədin açılması Azərbaycanı qətiyyən narahat etməməlidir".

**İsmayıl Qocayev**

# Nəhayət, BMT vəziyyəti anlayacaq

## Erməni uşaqların müharibəyə cəlb olunması təəccüblü deyil



**Ermənistan tərəfindən uşaqların silahlı qüvvələrə və silahlı qruplara cəlb edilməsi ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin hesabatı BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.**

Bildirilib ki, Ermənistanın beynəlxalq hüquqa zidd əməllərinin növbəti dəfə ifşa edilməsi məqsədilə hazırlanmış hesabatda bu ölkə tərəfindən uşaqların silahlı qüvvələrə və silahlı qruplara cəlb edilməsi, onlardan Azərbaycana və xalqımıza qarşı etnik və mili nifrətin yayılması vasitəsi kimi istifadə edildiyinə dair ətraflı məlumat əks olunub. Hesabatda açıq informasiya mənbələrindən əldə olunmuş məlumat, foto və video-materiallar əsasında Ermənistanın bir sıra beynəlxalq konvensiyaların müddəalarını kobud şəkildə pozduğu diqqətə çatdırılıb. Etnik və milli zəmində nifrəti aşılamaqla sülhə və təhlükəsizliyə təhdid törədən əməlləri ifşa edilib. Sənəddə Ermənistanın postmünaqişə dövründə də uşaqların hərbi təlimlərə cəlb olunması, onlarda nifrət və düşmənçiliyin aşılanması, Azərbaycanla yeni müharibəyə hazırlanması fəaliyyətini davam etdirdiyi diqqətə çatdırılıb. Bunun uşaq hüquqları və beynəlxalq humanitar hüquqla bərabər, irqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanın (CERD) kobud pozuntusu olduğu vurğulanıb.

**Politoloq Azər Niftiyev "Şərq"ə açıqlamasında bildirib ki, ermənilərdə türklərə nifrətin kökü dərindir. Analitik qeyd edib ki, ermənilər uzun dövrlər ərzində türkofobiya siyasəti yürüdüblər:** "Uşaqlara, yeniyetmələrə aşılayıblar ki, türklər bizim düşmənimizdir. Məhz bu mənfur siyasət onları məhvə sürükləyib, bəşəri inkişafdan geri atıb. Təsəvvür edin ki, işğal dövründə Azərbaycan torpaqlarını xarabalığa çeviriblər, daşı daşı üstündə qoymayıblar. Bu, insanlıq əleyhinə bəşəri cinayətdir. Özündən başqa heç kimi bəyənməyən bu "qədim və mədəni xalq"ın təmsilçiləri şəhər-kəndlərimizi, təbiətimizi viran qoymaq azmış kimi, üstəlik, ərazilərimizi minalayıb gediblər".

Müsahibimiz vurğulayıb ki, Azərbaycan bu müddətdə səbr və təmkin nümayiş etdirib: "İqtisadiyyatını gücləndirib, hərbi qüdrətini artırıb. Prezident İlham Əliyevin də söylədiyi kimi, tarixi məqama, lazımi ana hazırlaşıb. Situasiya yetişəndən sonra da biz ermənilər kimi qəddarlıq nümayiş etdirmədik. Ali Baş Komandan dəfələrlə Ermənistanın siyasi rəhbərliyinə xəbərdarlıq etdi ki, işğalçı siyasət sizi məhvə sürükləyir. Təklif edirdi ki, heç bir qan-qada olmadan doğma torpaqlarımızı azad etsinlər. Onlar bundan da nəticə çıxarmadılar. Nəticədə 44 günlük vətən müharibəsində tarixi Zəfər əldə etdik və doğma torpaqlarımızı düşmən tapdağından azad etdik. Ermənistan bu illər ərzində işğalçılıq siyasətinin girovuna çevrilib. Bütün beynəlxalq iqtisadi layihələrdən kənarda dayanıb. Xəstə təfəkkürlü və reallıqdan kənar "ideoloqlar"ın sayəsində özlərini real inkişafdan tədric ediblər. Nəticədə milyonlarla erməni daxildə nicat tapmayaraq mühacirətə üz tutub".

*Politoloqun sözlərinə görə, erməni uşaqların müharibəyə cəlb olunmasında erməni təcrübəsi baxımından təəccüblü bir şey yoxdur:* "Yetkinlik yaşına çatmayan şəxslərin, uşaqların, yeniyetmələrin müharibəyə cəlb edilməsi cinayətdir. Ermənistanın müharibə cinayətləri sırasında bu məqam xüsusi yer tutur. Təbii ki, belə bir qızışdırıcı və təxribatçı fəaliyyətə görə onlara qarşı qəti mübarizə aparılmalıdır. Bu cinayətin beynəlxalq müstəviyə bəyan edilməsi labüddür. BMT-nin bununla bağlı açıqlamasına gəldikdə isə bu, təqdir olunmalıdır. Nəhayət, beynəlxalq birlik anlamağa başlayıb ki, ermənilər azərbaycanlıların barış təklifini hər dəfə geri çevirib və daxildə nifrət toxumu səpiblər".

**İsmayıl Qocayev**

# 1600-dən çox bələdiyyənin bir uşaq bağçası yoxdur

## Nazir müavini deyib ki, qəbiristanlıqlar bələdiyyələrə verilməlidir





**Dünən Milli Məclisin Regional məsələlər komitəsinin iclasında "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi ilə bağlı illik (2022-ci il üzrə) məruzə" müzakirəyə çıxarılıb. Vurğulanıb ki, il ərzində yerli büdcə vəsaitlərinin səmərəli istifadə olunması, bələdiyyə əmlakının idarə edilməsi sahəsində qanunçuluğun və şəffaflığın təmin edilməsi, korrupsiyaya və digər hüquqpozmalara şərait yaradan halların qarşısının alınması üzrə inzibati nəzarət qaydasında tədbirlər görülüb. Qeyd olunub ki, bu məqsədlə aparılan araşdırmalar zamanı 27 halda ciddi qanun pozuntuları aşkar edilərək toplanmış sənədlər hüquqi qiymət verilməsi üçün aidiyyəti üzrə istintaq orqanlarına göndərilib, həmin materiallardan 12-si üzrə cinayət işi başlanılıb.**

Bildirilib ki, 2022-ci ildə bələdiyyə aktlarının göndərilməsi ilə bağlı müddət pozuntusu halları azalıb. İl ərzində İnzibati Xətalar Məcəlləsinin 549-cu maddəsinə əsasən, bələdiyyələrin 74 vəzifəli şəxsi barəsində inzibati xəta haqqında protokol tərtib edilərək məhkəmələrə göndərilib. Həmin protokollar üzrə 68 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib, 6 protokol isə baxılmaqdadır. 2022-ci ildə inzibati nəzarət zamanı aşkar olunan xarakterik qanun pozuntuları, onları doğuran səbəb-şərait və digər aktual məsələlər əsas götürülməklə bələdiyyələrə metodoloji yardımın əsas istiqamətləri, üsul və vasitələri müəyyənləşdirilib.

### Bələdiyyələrə vergilərdən daxilolmalar 50 faiz artıb

**İllik məruzədə qeyd olunub ki, 2022-ci ildə də bələdiyyələrin maliyyə imkanlarının yaxşılaşdırılması məqsədilə büdcə gəlirlərinin artırılması istiqamətində tədbirlər davam etdirilib:** "İl ərzində fiziki şəxslərin torpaq və əmlak vergisi üzrə yerli büdcələrə 2021-ci illə müqayisədə təqribən 2 milyon manat çox vəsait daxil olub. Son 2 ildə yerli büdcələrə torpaq və əmlak vergisindən 6,5 milyon manata yaxın əlavə vəsait daxil olub. Əvvəlki dövrlərdə icarəyə verilmiş torpaqların icarə haqlarının bazar qiymətlərinə uyğunlaşdırılması üzrə bələdiyyələrlə metodoloji iş davam etdirilib. Nəticədə 2022-ci ildə 167 bələdiyyənin ümumilikdə 15 min hektardan çox torpaq sahəsini əhatə edən 1.836 icarə müqaviləsində icarə haqqı təqribən 552 min manat artıb.

Bəyan edilib ki, 1215 bələdiyyənin elektron xəritəsi hazırdır. 391 bələdiyyənin elektron xəritəsi isə yoxdur. Qeyd edək ki, ölkəmizdə hazırda 1 606 bələdiyyə var.

### "Birdən-birə bələdiyyələrə böyük səlahiyyətlərin verilməsi yanlış olar"

Milli Məclisin Regional məsələlər komitəsinin iclasında çıxış edən ədliyyə nazirinin müavini Vilayət Zahirov bildirib ki, bələdiyyələrlə bağlı müəyyən məsələlərlə qarşılaşırlar. Ən mühüm məsələ maliyyə resurslarının zəif olmasıdır. Onun sözlərinə görə, qanunvericilikdə bununla bağlı imkanlar var, lakin bələdiyyələr imkanlardan düzgün istifadə edə bilmirlər: "Maliyyə resurslarının zəif olmasının səbəblərindən biri bələdiyyə ərazilərindəki vergi obyektlərinin siyahısının olmasıdır. Bu siyahı olarsa, həmin obyektlərdən vergilər yığılar, bələdiyyələrin maliyyə imkanları yaxşılaşar. Həmçinin rayon miqyasında torpaqlar icarəyə verilib. Bələdiyyələr əvvəlki illərdə torpaqları həmin dövrün qiymətləri ilə icarəyə verib. Həmin dövrün maliyyə vəziyyəti ilə indiki dövrün maliyyə vəziyyətini müqayisə etmək mümkün deyil. Bununla bağlı nazirliyin aidiyyəti qurumları tərəfindən regionlarda olan bələdiyyələrlə tövsiyələr göndərilib. Digər tərəfdən, son illərdə xeyli irəliləyiş var. Əvvəl bələdiyyə üzvlərindən sadəcə biri ali təhsilli olurdu. Hətta az sayda bələdiyyə sədrlərinin orta təhsildən də aşağı təhsil səviyyəsi olurdu. Hazırda demək olar ki, çox az sayda təhsili olmayan bələdiyyə üzvü tapılar. Birdən-birə bələdiyyələrə böyük səlahiyyətlərin verilməsi yanlış olar. Zamanla bunu həll etmək olar".

**Nazir müavini qəbiristanlıqların bələdiyyələrə verilməsinin gecikməsinə aydınlıq gətirib:** "Qəbiristanlıqların bələdiyyələrə verilməsi başa çatdırılmayıb. Bunun da bir çox səbəbləri var". Onun sözlərinə görə, regionlarda, kəndlərdə sənədləşmənin, xəritənin və digər sənədlərin olmaması məsələlərin gecikməsinə səbəb olub: "Buna görə də təbii ki, çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müəyyən qərar qəbul olunub, qəbiristanlıqlar bələdiyyələrə verilməlidir".

### "Bələdiyyələr vətəndaşa sənəd göndərir ki, mənzilə görə bu qədər ödəniş etməlisən, izahı yoxdur"

**Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, dövlətin verdiyi dotasiyalar eyni bələdiyyələrə verilir:** "Niyə o bələdiyyələr dotasiya alır, amma başqaları almır? Bu bələdiyyələrin siyahısını digər strukturlardan kimlər təqdim edir, hansı əsaslara əsasən tərtib edirlər? Baxırsan ki, dotasiyalar 10 il ərzində eyni bələdiyyələrə verilir. Digər bələdiyyələr niyə dotasiya ala bilmirlər? Məsələ nədir, bilmirəm. Sonra yığılan vəsaitlərin xərclənməsinə gəlincə, siyasi partiyalarda konkret bilinir ki, neçə faizi əmək haqqına, neçə faizi yeni layihələrin həyata keçirilməsinə ayrılmalıdır. Düzdür, bələdiyyə müstəqil təşkilatdır. Amma belə ola bilməz ki, özün yığ, özün xərclə. Orada göstərilməlidir ki, yığılan vəsaitin neçə faizi əhalinin sosial probleminə ayrılmalıdır, nə qədəri əmək haqqına verilməlidir. Bunlar müəyyən edilməlidir. Ola bilər bələdiyyələr torpağı cüzi ucuz icarəyə versin, amma 10 dəfə aşağı hansısa sahibkara verə bilməz. Bundan başqa, bələdiyyələr tərəfindən toplanan əmlak vergisi ilə bağlı da problem var. Hər bir vətəndaşa bələdiyyələr tərəfindən təqdim edilən mənzil haqqı ödənişi ilə bağlı heç bir hesablama yoxdur. Məsələn, kooperativlərdə bu ödəniş hər kvadrat metrə görədir. Bələdiyyələr isə sənəd göndərir ki, bu qədər verməlisən. Amma vətəndaşa izahı olmalıdır ki, niyə vətəndaş bu qədər ödəməlidir?".

**Deputat Tahir Rzayev bildirib ki, bələdiyyələrdən 2-3-ü birləşib uşaq bağçası aça bilər. Bu gün bağçalara böyük ehtiyac var:** "Özəl bağçaların fəaliyyətinə nə qədər vəsait xərclənir? Azərbaycanda fəaliyyət göstərən 1600-dən çox bələdiyyənin bir bağçası belə yoxdur. Ədliyyə Nazirliyi müəyyən tədbirlər həyata keçirir. Amma təəssüf ki, bunlar elə kağız üzərində də qalır. Bələdiyyələrə imkanlar yaradılıb".

### "Bələdiyyələrin icra aparatlarında əməkdaşların sayının şişirdilməsi ciddi problemdir"

**Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov deyib ki, bələdiyyələrin icra aparatlarında əməkdaşların sayının şişirdilməsi ciddi problemdir:** "Bələdiyyələrin icra aparatlarında olan əməkdaşların sayının şişirdilməsi ilə bağlı məsələ ciddi problemdir. Hazırda bunun qanunvericiliklə tənzimlənməsi yoxdur". Deputat bildirib ki, bu gün hər hansı bələdiyyə heç bir məhdudiyyət olmadan istənilən sayda bələdiyyə qulluqçusunu işə qəbul edir: "Burada heç bir nümunəvi struktur yoxdur. Dəfələrlə təklif etmişik ki, bu məsələ qanunvericiliklə tənzimlənsin. Bələdiyyələrin icra aparatının nümunəvi strukturu müəyyən meyarlar əsasında təsdiq olunmalıdır. Əgər bu olsa, bələdiyyələr məcburi şəkildə həmin struktura uyğun işçiləri işə qəbul edəcək. İcra aparatlarının formalaşdırılması bələdiyyə sədrinin öhdəsində olana qədər bu məsələdə irəliləyiş görməyəcəyik".

**İsmayıl Qocayev**





# Kadr hazırlığı

## Elm və təhsil siyasəti Heydər Əliyevin dövründə ən yüksək səviyyəyə qalxıb

**Azərbaycan tarixinin Heydər Əliyev dövrü taleyüklü məqamları ilə bütöv bir mərhələ, epoxadır. Zaman etibarilə bizlərə çox yaxın olduğu üçün bu gün həmin dövrün tarixi qiymətini, dəyərini bəlkə də düzgün ifadə etmək bir qədər çətindir. Ümummilli lider Heydər Əliyev bir çox siyasi xadimin edə bilmədiyini gerçəkləşdirdi.**

Müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə XX və XXI əsrlərin tanınmış siyasi xadimləri arasında həmişəlik öz layiqli yerini tutdu. Xalqımızın yetirdiyi nadir dövlət xadimlərindən olan Heydər Əliyev yaşadığı bütün həyatı boyu hər zaman xalqını, vətənini düşünüb. Onun ürəyi Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınıb. Ulu Öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin, üzücü anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərib, ölkəsini bəlalardan qurtarmağı bacarıb. Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Bu dahi insan düşüncələri zəngin olduğu qədər də tükənməz enerjiyə malik idi. Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhət bu idi ki, o, məmləkətin inkişafı üçün zəruri olan məqamları görə bilirdi. Qarşıya konkret məqsədlər qoyurdu və insanları bu məqsədlər naminə səfərbər edirdi, qüvvələri səmərəli şəkildə istiqamətləndirirdi.

Ulu Öndər bütün fəaliyyəti dövründə elm, təhsil və mədəniyyətin inkişafına xüsusi qayğı ilə yanaşırdı. Bu da təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir. Məhz buna görə də Ümummilli Liderimizin rəhbərliyi ilə respublikamızın iqtisadi bazasının gücləndirilməsi əhalinin güngüzəranının yaxşılaşdırılması, elm və təhsilin inkişafı ilə paralel aparılırdı. Heydər Əliyevin rəhbərliyi dövründə illər Azərbaycanın tarixinə elmin və təhsilin, mədəniyyətin tərəqqi dövrü kimi daxil oldu. Təkcə paytaxtımızda deyil, respublikamızın ucqarlarında da yüzlərlə məktəb, kino, teatr, klub, mədəniyyət evi, kitabxana, uşaq bağçası tikildi. Mədəniyyətin bütün sahələrində görünməmiş uğurlar qazanıldı. Bu qayğı sayəsində neçə-neçə görkəmli bəstəkar, rəssam, şair, yazıçı, heykəltəraş yetişdi. Onlara fəxri adlar verilməsi, Bakıda və Moskvada yubileylərinin keçirilməsi ənənə halını aldı. Ümummilli Lider hələ Azərbaycana birinci rəhbərliyi dövründə təhsilin inkişafına böyük önəm verirdi. Ötən əsrin 70-80-ci illərində Heydər Əliyevin rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, respublika elmlər akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdı. Ulu Öndər yaxşı bilirdi ki, yüksək ixtisaslı mütəxəssislər yetişdirilməsi istənilən ölkədə dövlət müstəqilliyinin əsasını təşkil edən ən mühüm amillərdən biridir. Buna görə dahi öndər cəmiyyətin inkişaf zəminini düzgün olaraq təhsildə və maarifçilikdə görürdü, bu sahənin inkişafına diqqət və qayğısını əsirgəmirdi. Keçmiş sovetlər dövründə Ulu Öndər Azərbaycan təhsilinin tərəqqisinə mane olan bir sıra amilləri aradan qaldırmışdı. Mövcud potensialı ölkənin gələcək inkişafının elmi əsaslar üzərində qurulmasına, respublikanın mədəni intellektual resurslarının gücləndirilməsinə, Azərbaycan üçün layiqli vətəndaşların yetişdirilməsi işinə səfərbər etmişdi. Məhz həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almışdı. Təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdı. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmişdi. Ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdı. O illərdə Azərbaycanın əldə etldiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdu. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdı. Ümummilli Lider Heydər Əliyev öhdəsinə düşən bütün işləri yüksək səviyyədə reallaşdırdığı üçün məhz 1983-cü ildə SSRİ-də məktəb islahatı da Nazirlər Soveti sədrinin birinci müavini kimi ona tapşırılmışdı.

### "O kadrların böyük qismi Azərbaycan təhsilində yeni keyfiyyət mərhələsi yaratmağı bacardılar"

1993-cü ilin iyununda Bakıya qayıdan Ümummilli Liderin xüsusi diqqət yetirdiyi məsələlərdən biri təhsil sisteminin yaxşılaşdırılması ilə bağlı idi. Buna görə də Ulu Öndər təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatlar proqramının hazırlanaraq reallaşdırılması vəzifəsini qarşıya qoydu. 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında" sərəncamı imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. Çox qısa müddətdə komissiyanın hazırladığı "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə minmişdi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi. Heydər Əliyevin "İnsan təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır" - konseptual göstərişini əsas tutaraq ümumi orta təhsil sistemində də bu müddət ərzində ciddi irəliləyişlər əldə olunub. Ümumi təhsildəki ən ciddi yeniliklərdən biri yeni əlifbaya keçilməsi - latın qrafikalı əlifbanın reallığa çevrilməsi idi. Heydər Əliyevin "Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır" - tarixi çağırışı təhsil sistemində özünün tam həllini tapıb. İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Prezident Heydər Əliyevin ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə diqqətinin daha bir nümunəsidir. Ulu Öndər Heydər Əliyev ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirib. Ümummilli Liderimizin fikrincə, ana dili azərbaycançılığın təməl prinsipi idi. Buna görə də xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini qorumağın, inkişaf etdirməyin vacibliyini yaxşı bilirdi.

**Ulu Öndərin elm və təhsilin inkişafında müstəsna xidmətləri ilə bağlı "Şərq"ə danışan millət vəkili, siyasi elmlər doktoru, professor Hikmət Babaoğlu deyib ki, böyük dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə ən çox inkişaf edən sahələrdən biri də elm və təhsil sahəsi olub. Deputat bildirib ki, 1970-ci illərdə Azərbaycanda müasir mətkəblərin tikilməsi, kənd məktəbləri ilə şəhər məktəbləri arasında fərqin aradan qaldırılması, ixtisaslı-pedaqoji kadrların hazırlanması məhz Heydər Əliyevin elm və təhsilə göstərdiyi diqqətin sayəsində mümkün olmuşdu:** "Savadlı gənclərin təhsil aldıqdan sonra istehsalatın və əmək fəaliyyətinin avanqard hissələrinə cəlb etməsi həm də elmin və təhsilin təşviqi kimi qiymətləndirilməlidir. Ancaq şübhəsiz ki, o dövrdə Azərbaycanda təhsil müəssisələrində təhsil almaq nə qədər üstün hesab edilsə də, SSRİ-nin daha böyük respublikalarında təhsilin səviyyəsi bir qədər fərqlənirdi. Bu cür universitetlər SSRİ-nin aparıcı ali təhsil ocaqları hesab olunurdu. Rusiyada, Ukraynada, Belarusiyada yerləşən universitetlər sovet təhsil sisteminin daha çox diqqət mərkəzində olduğuna görə müqayisədə daha modern və innovativ təhsil verməyi bacarırdılar. Üstəlik, bu təhsil ocaqlarının bir qisminin də həmin dövrdə beynəlxalq əlaqələri daha geniş idi. Bu fərqi hiss edən böyük dövlət xadimi Heydər Əliyev Azərbaycandan məhz SSRİ-nin aparıcı universitetlərinə tələbələrin göndərilməsi ilə bağlı xüsusi plan hazırladı. Bu, keçmiş müttəfiq ölkələrdə çox az nümunələrdən biri idi. Beləliklə, istedadlı Azərbaycan gəncləri məhz Bakıda ali məktəblərə qəbul imtahanlarını verərək Rusiyanın və SSRİ-nin aparıcı universitetlərində təhsil almaq hüquqi qazanırdılar. Xüsusi vurğulamaq lazımdır ki, məhz Bakıda Azərbaycan dilində imtahan verərək Rusiyaya oxumağa gedirdilər. Çünki Azərbaycan kəndlərindən, rayonlarından gələn gənclərimiz rus dilində arzuolunan səviyyədə savadlarını nümayiş etdirə bilmirdilər. Ona görə də Azərbaycan dilində imtahan verir və sonradan təhsil aldıqları universitetlərdə rus dilini mükəmməl öyrənirdilər. O kadrların böyük qismi Azərbaycan təhsilində yeni keyfiyyət mərhələsi yaratmağı bacardılar. Onlar təhsil aldıqdan sonra Azərbaycana qayıtdılar. Eyni zamanda bununla Azərbaycanda savadlı mühəndislər, hərbçilər, elm xadimləri yetişdi. Sovet elminin ən müasir nümunələrini, kimya, tibb, biologiya, neft sənayesi sahəsində yenilikləri öyrənərək Azərbaycanda tətbiq etməyi bacardılar. Beləliklə, Azərbaycanda elm və təshil yeni səviyyəyə qalxdı".

**H.Babaoğlu qeyd edib ki, o dövrdə elmi, təhsili irəli aparan gənclərimizə, alimlərimizə xüsusi mükafatlar verilirdi:** "Əksər hallarda belə mükafatlar Moskvadan alınmaqla, yəni SSRİ-nin paytaxtından yönləndirilməklə Azərbaycan gənclərinə verilirdi. Kənd təsərrüfatı, pambıqçılıq, taxılçılıq və digər sahələrə, laboratoriyaların qurulmasına, yeni növlərin yaradılmasına, maşınqayırma sənayesinə, müasir neft avadanlıqlarının istehsalı kimi məsələlərə xüsusi diqqət ayrılırdı. Nəticə etibarı ilə həmin dövrdə onlarla gəncimiz SSRİ-nin yüksək mükafatlarına, adlara layiq görülürdülər".

**Millət vəkili vurğulayıb ki, müstəqillik dövründə də Ülu Öndərin diqqət göstərdiyi sahələrdən biri də elm və təhsil olub:** "Müstəqil Azərbaycanın təhsil sisteminin əsasları məhz böyük dövlət xadimi Heydər Əliyevin dövründə qoyuldu. Əgər biz bu gün qürurla dünyanın ən aparıcı universitetlərində təhsil alan Azərbaycan gənclərini görürüksə, bax, bu məktəbin əsası da Heydər Əliyevin təhsilə olan münasibətinin göstəricisidir. Ümummilli Lider gənclərlə görüşlərdə 1990-cı ilin əvvəllərində müxtəlif səbəblərdən fərqli istiqamətlərə yönəlmiş gənclərin fəaliyyətinin cazibə mərkəzi kimi elm, təhsil, idman və incəsənəti göstərmişdi. Bu da müstəqillik dövründə elm və təhsildə yeni, əsaslı bir dönüş yaranmasına səbəb olmuşdu. Azərbaycanda müasir tələblərə cavab verən hərbi sənaye və yeni istehsal sahələri mövcuddursa, bu da məhz Heydər Əliyevin dövründə formalaşan elm və təhsilin bazasında yaranıb".

**İsmayıl Qocayev**



# Tokayev əvvəlki sistemin üzərindən qalın xətt çəkir

## Nazarbayev və onun idarəetmə sistemi ilə bağlı sərt addımların atılmasının səbəbi budur

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Qazaxıstan Respublikasının birinci Prezidenti - Elbaşı haqqında" qanunu qüvvədən salıb. Bu barədə o, Konstitusiya qanununu imzalayıb.**

Bundan əvvəl sənəd Parlamentin hər iki palatasının birgə iclasında da təsdiqlənib. Məlumat üçün deyək ki, "Birinci prezident haqqında" qanunda eks-prezident Nursultan Nazarbayev və onun ailə üzvləri üçün bir sıra imtiyazlar var idi. O, hətta törətdiyi əməllərə görə məsuliyyətə cəlb oluna, saxlanıla, həbs edilə və həbsdə saxlanıla, axtarışa məruz qala, dindirilə və ya şəxsən axtarışa məruz qala bilməzdi. Toxunulmazlıq Nazarbayevə və onunla birlikdə yaşayan ailə üzvlərinə məxsus bütün əmlaka da şamil edilirdi.

**Nursultan Nazarbayevə qarşı atılan addımları "Şərq"ə dəyərləndirən politoloq İlqar Vəlizadə bildirib ki, Qazaxıstanda yenidən formalaşmış hakimiyyət köhnə hökumət imicindən uzaqlaşmağa çalışır. Ekspert vurğulayıb ki, Tokayev hakmiyyəti özünü yenilikçi, islahatçı formasında cəmiyyətə təqdim edir:** "Yeni hökumət özünü Qazaxıstanın ikinci respublikasının qurucusu kimi təsdiqləmək niyyətindədir. Ona görə də Nazarbayev timsalında vaxtı keçmiş və müsbət imici pozulmuş köhnə siyasi-iqtisadi elementləri tamamilə aradan qaldırmağa çalışırlar. Köhnə stereotiplərdən azad olmaq istəyirlər. Nursultan Nazarbayev də birbaşa köhnə sistemlə əlaqələndirilir. Yeni prezident isə əvvəlki sistemin üzərindən qalın xətt çəkir və yeni sistem gətirdiyini elan edir. Təzə sistemdə köhnə rejimin qalıqlarının saxlanmasını yeni imicin pozulması, zədələnməsi kimi görürlər. Nazarbayev və onun idarəetmə sistemi ilə bağlı sərt addımların atılmasının səbəbi budur".

**İsmayıl**

# Tehran dilənir

## Çin 20 il müddətində İrana 400 milyard sərmayə qoyacaq

**İran Prezidenti İbrahim Rəisi Çinə səfər edərək bu ölkənin lideri Si Tsinpinlə görüşüb. Səfər zamanı iki ölkə arasında 20 əməkdaşlıq sazişi imzalanıb. Sazişlər müxtəlif sahələri əhatə edir. Bu sıraya böhranların idarə olunması, turizm, rabitə və informasiya texnologiyalarından tutmuş kənd təsərrüfatı, səhiyyə, media, idman və mədəni irsin qorunması kimi sahələr aiddir.**



### "Ancaq Pekin bu vədi yerinə yetirməyə də bilər. Bu, İran ətrafında cərəyan edəcək hadisələrdən asılıdır"

*"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Tehran Pekinlə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Onun sözlərinə görə, İbrahim Rəisinin Çinə səfəri İran liderlərindən birinin son 20 ildə bu ölkəyə ilk rəsmi səfəridir:* "Qərbin sanksiyaları İranı Çinlə iqtisadi əməkdaşlığı genişləndirməyə sövq edir. 2022-ci ildə İrandan Çinə ixracın həcmi 58 faiz artaraq 14 milyard dolları keçib. Çin İran mallarının birinci idxalçısıdır. İrana malların ixracatçısı sırasında isə Çin ikinci yerdə qərar tutub. Beləliklə, İranın Çindən asılılığı artıb. İran neftini ucuz qiymətə Çinə satır. İranın başqa bazarlara çıxışı məhduddur. Pekin də bundan istifadə edərək İran neftini ucuz qiymətə alır. Pekin eyni ilə sanksiya altında olan Rusiyadan da ucuz qaz alır. İran kimi Rusiya da öz qazını sanksiyalar ucbatından başqa ölkələrə sata bilmir. İranla Çin arasında ən böyük saziş 2021-ci ildə imzalanıb. Bu sazişə görə, Çin 25 il müddətində İrana 400 milyard dollar sərmayə qoyacaq. Ancaq Pekin bu vədi yerinə yetirməyə də bilər. Bu, İran ətrafında cərəyan edəcək hadisələrdən asılıdır. Məsələn, İsraillə İran arasında savaş başlasa, Pekin planlarını dəyişmək məcburiyyətində qalacaq".

**E.Şahinoğlunun fikrincə, İranın uranı zənginləşdirmə çalışmaları Qərblə yanaşı Çində də suallar doğurur:** "Çinin bəzi addımları isə Tehranda suallar yaradır. Çin lideri Si Tsinpin keçən aylarda İranın bölgədəki rəqibi Səudiyyə Ərəbistanına səfər etmişdi. Çin lideri yalnız Səudiyyə kralı ilə deyil, bu ölkədə bir neçə ərəb lideri ilə görüşmüşdü. Çin lideri ərəb ölkələrinə ayrıca səfərdə vaxt itirməmək üçün Səudiyyə Ərəbistanının paytaxtında Çin-ərəb sammiti keçirdi. Ərəb ölkələri Çinlə əməkdaşlığı genişləndirməyə çalışır. Pekin də bunda maraqlıdır. Tehran Çin-ərəb dövlətləri əməkdaşlığının hansı həddə qədər inkişaf edəcəyindən narahatdır. Buna görə də Pekinin Tehrana əməkdaşlıqla bağlı verdiyi vədlərə və imzalanan memorandumlara baxmayaraq, Çin-İran münasibətlərində gedişat fərqli ola bilər. Tehranın özündə də Çinlə ittifaqın İran üçün təhlükəli ola biləcəyini söyləyənlər var".

**İsmayıl**

**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Rusiya xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevlə görüşüb.**



# Yaxın altı ayda sülh gözlənilmir

## Çünki Moskvanın vasitəçilik missiyası həyata keçirdiyi proseslərə uyğun deyil

Görüş zamanı tərəflər arasında Ermənistan-Azərbaycan normallaşma prosesinin, sülh sazişi üzrə danışıqların cari vəziyyəti, Laçın yolunda etirazların müxtəlif aspektləri müzakirə edilib. C.Bayramov ölkəmizin həm ərazilərinin işğalı dövründə, həm də postmünaqişə dövründə göstərdiyi konstruktiv yanaşmalara, 44 günlük müharibədən sonra sülh prosesi üzrə təklifləri irəlilətməsinə baxmayaraq, Ermənistanın prosesə daim maneçilik törətdiyini qeyd edib. Ermənistanın sülh sazişi üzrə dekabr ayında keçirilməsi nəzərdə tutulan danışıqların növbəti raundunu boykot etdiyini xatırladıb. Laçın yolundan Üçtərəfli Bəyanatla nəzərdə tutulmayan təyinatdan kənar məqsədlər üçün istifadə edilməsi diqqətə çatdırılıb. Nazir, etirazçıların legitim tələblərinin hələ də yerinə yetirilmədiyini və Ermənistan tərəfinin bu vəziyyətdən öz siyasi məqsədləri üçün istifadə edərək, məsələni yanlış məcraya yönəltdiyini vurğulayıb. Görüşdə həmçinin regional təhlükəsizlik və digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Milli Cəbhə Partiyasının siyasi məsələlər üzrə müavini Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin bağlanması yaxın altı ayda gözlənilmir. Ekspert bildirib ki, hazırda tərəflər arasında sülh danışıqlarının gündəliyi müzakirə olunur:** "Avropa İttifaqının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə aparılan sülh prosesi məhz Fransanın birbaşa müdaxiləsi ilə fiaskoya uğradı. Avropa İttifaqı iki ölkə arasında normallaşma prosesinə zidd olaraq Fransa jandarmalarının iştirakı ilə Azərbaycanla Ermənistan sərhədi boyu uzunmüddətli müşahidə missiyası göndərir. Bundan sonra Brüsselin vasitəçiliyinə ehtiyac yoxdur. Bu proses Brüsselin Ermənistanda Rusiyanın geosiyasi mövqelərinə zərbə kimi nəzərdə tutulsa da, proses Azərbaycana qarşıdır. ABŞ dövlət katibi Entoni Blinkenin bütün cəhdlərinə baxmayaraq, Vaşinqton gündəliyi də yerində sayır. Bundan istifadə edən Moskva yenidən fəallaşıb. Azərbaycan Brüsselin və Vaşinqtonun vasitəçiliyinə ümid və etimad edirdi. Amma Qərb ölkələri Ermənistanın xətrinə dəyməmək üçün prosesi Rusiyanın İrəvanda zəifləməsi istiqamətində aparmağa başladılar".

*M.Əsədullazadə vurğulayıb ki, Kreml Azərbaycan və Ermənistan arasında yenidən XİN səviyyədə görüşün keçirilməsində maraqlıdır:* "Prezident İlham Əliyev ötən gün Vladimir Putinə zəng etdi. Bu telefon danışığı Kremlin Vardanyanı və Arutyunyanı təlimatlandıraraq Xankəndiyə göndərməsi fonunda baş tutdu. Görünür, prezident bununla bağlı birbaşa narazılığını Putinə bildirib. Çünki Moskvanın vasitəçilik missiyası həyata keçirdiyi proseslərə uyğun deyil".

**İsmayıl**



# Moskva Vardanyan kartı ilə oyunlarını davam etdirir

## Laçın yolundakı aksiyanın aktivliyi ilk günlərdəki kimi möhkəm xarakter qazanmalıdır

**Qarabağ separatçılarının qondarma "dövlət naziri" postunu tutan milyarder Ruben Vardanyanın Xankəndiyə qayıtması ilə bağlı məlumat yayılıb. "Hraparak"ın məlumatına görə, Vardanyan fevralın 13-də tabeliyindəki "rəhbər heyətin" iştirakı ilə işçi məsləhətləşmə keçirib. Bildirilir ki, mövcud vəziyyəti təqdim edən R.Vardanyan görüləcək çox işin olduğunu söyləyib.**

Onun separatçıların rəhbər heyətində təmsil olunan şəxslərə müxtəlif tapşırıqlar verdiyi deyilir. Qeyd edək ki, Ermənistan KİV-i ötən həftə Ruben Vardanyanın Moskvaya getdiyini yazmışdı. Həmin məlumatlarda bildirilirdi ki, Rusiyanın Qarabağla bağlı mövqeyini aydınlaşdırmaq üçün əvvəlcə Qarabağ separatçılarının başçısı Araik Arutyunyan, ardınca isə Ruben Vardanyan Moskvaya gedib. Mətbuat bu iki şəxsin son vaxtlar yola getmədiyi və aralarındakı gərginliyin dərinləşdiyini yazırdı. Ehtimal olunur ki, Moskva onlardan hansı ilə işləyəcəyinə tezliklə aydınlıq gətirəcək.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan Ruben Vardanyan fiqurunu vurub Qarabağ lövhəsindən tamamilə kənarlaşdırmaq üçün unikal şans yarandığını düşünürdü. Ekspertin gəldiyi qənaət belədir ki, Ruben Vardanyanın Xankəndidən Moskvaya getməsi Bakıya Moskva ilə danışıqlar aparmaq üçün zaman intervalı təqdim edirdi:** "Məncə, Azərbaycan bu intervalda Rusiya ilə razılığa gəlib Vardanyan layihəsinə son qoyacağını hesablamışdı. Amma Kreml çirkin oyunların fiqurundan yapışmağı seçdi. Moskva Vardanyana kartı ilə oyunu davam etdirir. Vardanyan Moskvadan təlimatlar alaraq yenidən Xankəndidə peyda olub. Azərbaycan Laçın yolundakı aksiyalardakı tələblərin cövhərini saxlamaq şərtilə ona bəzi yeni elementlər əlavə etsə, yaxşı olar. Birinci, Rusiya sülhməramlılarının avtomobilinə keçid yaradılsa da, yoxlama mexanizminin təşkilində Bakı özünə pay götürməlidir. İkinci, aksiya iştirakçılarının aktivliyi ilk günlərdəki kimi möhkəm xarakter qazanmalıdır. Üçüncü, bu, mümkün deyilsə, Azərbaycanın son təxribatlardan və Qarabağdakı "seçki" şousundan sonra hərbi tədbir görməkdən başqa seçimi olmadığını göstərməlidir".

**İsmayıl Qocayev**

# Bütün ölkələrdə hibrid tipli avtomobillərə keçid edilir

## Artıq ekoloji vəziyyət elə bir həddə gəlib çatıb ki, insanlıq, bəşəriyyət məcburdur ki, bu sistemə keçsin

**2023-cü ilin yanvar ayında Azərbaycana 102 milyon 620,56 min ABŞ dolları dəyərində 6 881 ədəd müxtəlif təyinatlı avtomobil idxal olunub.**

"Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına görə, bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 50,44 faiz və 21,04 faiz çoxdur.

Bu avtomobillərin 119-u (4 milyon 937,88 min ABŞ dolları dəyərində) yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələridir. Bu isə ölkəyə idxal olunan elektromobilin 9,2 dəfə artması deməkdir.



**Ekspert Eldəniz Cəfərovun sözlərinə görə, son dövrlər inkişaf etmiş ölkələrdə, eləcə də dünyanın bütün ölkələrində elektrikli və hibrid tipli avtomobillərə keçid edilir. Artıq ekoloji vəziyyət elə bir həddə gəlib çatıb ki, insanlıq, bəşəriyyət məcburdur ki, bu sistemə keçsin:** "Son zamanlar Azərbaycana yeni, ekoloji cəhətdən təmiz avtomobillərin idxalının stimullaşdırılması ilə bağlı çox güzəştlər edilib. Ötən il ekoloji təmiz avtomobil sektoru ilə bağlı 2 dəfə güzəşt tətbiq edilməsi ölkəmizdə bu sahənin inkişafı ilə bağlı ciddi addımlar atıldığını göstərir. Bu da elektromobillərin Azərbaycanda təşviqi istiqamətində aparılan uğurlu işlərin tərkib hissəsi, avtomobil parkının yenilənməsi istiqamətində atılan ən mühüm addımlardandır. Elektromobillərin sayının artmasının stimullaşdırılması, ilk növbədə ətraf mühitin mühafizəsi ilə bağlıdır".

**Şeymən**

# Məqsəd əhalidən pul qoparmaqdı

## Cəmiyyət "selofan"sız günlərə hazır deyil

**Dünəndən etibarən marketlərdə verilən polietilin torbalar pulla satılır. Artıq mağazadan hər hansı bir məhsulu alan alıcı torba üçün də ayrıca pul ödəməlidir. Kiçik paketlər 3-5, böyük paketlər isə 10 qəpik civarında dəyişir.**

Qərar plastik istifadəsini azaltmaq üçün tətbiq edilir.

Ekspertlərin fikrincə, ticarət şəbəkələrində və marketlərdə polietilen torbaların ödənişli olmasının ideya olaraq anlaşılandır, amma bunun Azərbaycanda tətbiqi, reallaşdırılması ciddi problemlərə səbəb olacaq. Polietilen torbalardan imtina insanların könüllü davranışından qaynaqlanmadığı müddətdə onun satışı ekoloji problemlərin həllində ciddi bir rol oynamayacaq.

Qeyd edək ki, dünyada belə bir yanaşma çoxdan var ki, polietilen torbalar ekologiyaya çox ciddi ziyan vurduğundan ondan imtina etmək lazımdır. Lakin həmişə olduğu kimi bu dəfə də Azərbaycanda axırda görülməli olan işi əvvəldə görürlər. Yəni Avropa ölkələrində və ABŞ-nin bəzi ştatlarında belə qaydalar var və onlar illərlə bununla bağlı təbliğat aparıb, sosial çarxlar hazırlayıblar. Bundan başqa, parça torbaların pulsuz paylanılması ilə bağlı aksiyalar keçirib, maarifləndirmə işləri aparıblar. Ancaq bundan sonra polietilen torbaların pulla satılması ilə bağlı qərar veriblər. Amma bizdə hansısa bir təbliğat, təşviqat, sosial çarxlar, maarifləndirmə işləri aparmadan birdən-birə polietilen torbaların pulla satılması ilə bu problemi həll edəcəklərini düşünürlər. Səhv yanaşma məhz bundan ibarətdir. Azərbaycan alıcısının davranışlarını bilərək, 3-5 qəpiyə görə onlar bundan imtina etməyəcəklər.

Çünki xaricdə polietilen torbalar pullu olduğuna görə inkişaf etmiş ölkələrdə ekologiyaya vurulan ziyanın insanlar tərəfindən qəbul olunmasına görə polietilen torbalardan imtina edilir.



## "Polietilen torbaların alternativi yaradılmadan onların pulla satılması düzgün deyil"

**İqtisadçı-ekspert Eldəniz Əmirovun "Şərq"ə açıqlamasına görə, marketlərdəki polietilen torbalar bu günə qədər alıcılara havayı verilmirdi. Onun sözlərinə görə, marketlərdə tavanda yanan lampalardan tutmuş havayı hesab etdiyiniz torbalara qədər hər şeyin xərci satılan məhsullar üzərinə paylanaraq istehlakçılara ötürülür:** "Maya dəyərinə nələrin daxil olduğuna baxın: Məhsulun maya dəyərinə istehsal prosesində istifadə olunan təbii ehtiyatların, xammalın, materialın, yanacağın, enerjinin, əsas fondların, əmək ehtiyatlarının qiymətləndirilmiş dəyərini, həmçinin onların istehsalına və satışına sərf olunan digər məsrəflər daxildir. Torbanın xərci də böyük hərflərlə yazdığım sonuncu hissədə gizlənirdi. İndi bu xərci sadəcə çek üzərində 3-5 qəpik göstərəcəklər ki, insanlar məsuliyyətli olub, torbalardan lazımlı-lazımsız istifadə edib, təbiətə tullamasınlar. Torbalar nisbətən ekoloji tələblərə uyğun olsun, insanlar da daha səmərəli istifadə etsin. Əlqərəz, bu günə qədər torbanın qiyməti çek üzərində yazılmadığına görə, elə bilirdik ki, market sahibi cibindən bizə polietilen torba alır. Xeyr, elə şey yoxdur, sadəlövh olmayın! Bu dünyada yalnız valideynin övladına olan məhəbbəti havayıdır, qalan heç nə havayı deyil!

*Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlı da açıqlamasında Azərbaycan cəmiyyətinin bu prosesə hazır olmadığını deyib. Onun sözlərinə görə, torbaları ödənişli satmaqda məqsəd ekologiyanı qorumaq yox, əhalidən pul qoparmaqdır:* "Bu kampaniya əhalidən əlavə pul qoparmaq üçün yox, sağlamlıq və ekoloji mühit üçün həyata keçirilməlidir. Ekologiyanı zərərli vərdişlərdən qorumaq üçün də müxtəlif yollar var. Bunun üçün polietilen torbaların alternativi olmalıdır ki, əhali bundan imtina etsin. Təbiətdə parçalanan, ekologiyaya zərər vurmayan materiallardan hazırlanan qablaşdırma olmalıdır. Bunlar kağız, parça torbalar və şüşə qablar olmalıdır. Ekologiyaya zərər vurmayan məhsullar istehsal olunmalıdır. Təbii paket və qablar istehsal edən müəssisələr açılmalı, vergidən azad edilməlidir ki, ucuz məhsul buraxa bilsinlər.

Hazırda insanların həyat tərzi bu cür formalaşıb. İnsanlar alış-verişi polietilen torbalar vasitəsilə edir. Ekologiyanı qorumaq məqsədilə bu vasitələri pulla satmaq çıxış yolu deyil. Həmsöhbətimiz xüsusi olaraq qeyd etdi ki, polietilen torbaların alternativi yaradılmadan onların pulla satılması düzgün deyil".

**Şeymən**

# Azərbaycanın seysmik rayonlaşdırma xəritəsi hazırlanacaq

## Ölkəmizdə "Seysmologiya" ixtisası üzrə yüksəkixtisaslı kadr hazırlığı işinə diqqət daha da gücləndirilməlidir

**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib. Akademiyadan "Şərq"ə verilən məlumata görə, iclasda AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, AMEA-nın müşavirləri, elmi müəssisə və təşkilatların baş direktorları və aidiyyəti şəxslər iştirak ediblər.**

Əvvəlcə qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələ zamanı həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Türkiyədə baş vermiş zəlzələdən dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək başsağlığı verdiyini deyən akademik İsa Həbibbəyli ölkə başçısının göstərişi ilə dövlət qurumlarının operativ iş rejiminə keçdiyini, qardaş ölkəyə xilasedici dəstələr, tibb personalı və yardım üçün lazım olan tibbi ləvazimatların, humanitar yardımların göndərildiyini söylədi. Həmçinin Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə zəruri olan dərman və tibbi ləvazimatların göndərildiyini, yardım kampaniyasına sadə vətəndaşlar, dövlət qurumları və ayrı-ayrı təşkilatlarla yanaşı, Azərbaycan Milli Elmlər Akademiyasının elmi müəssisələrinin əməkdaşlarının da dəstək verdiklərini deyib.

Qardaş Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Akademiyada operativ müşavirənin keçirildiyini diqqətə çatdıran akademik İsa Həbibbəyli AMEA əməkdaşlarının zəlzələ və onun səbəbləri, dağıdıcı zəlzələlərin yaratdığı fəsadlar, Azərbaycandakı hazırkı seysmik vəziyyətlə bağlı ölkə mediasında davamlı olaraq açıqlamalarla çıxışlar etdiklərini və əhalinin maarifləndirilməsi istiqamətində təbliğat işi apardıqlarını söylədi.

Sonra AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişlinin "Türkiyədə baş vermiş zəlzələlərin ilkin nəticələri və seysmologiya elminin vəzifələri" mövzusunda məruzəsi dinlənilib. O, Türkiyədəki zəlzələlərin dağıntılarının miqyasının böyük olmasının ilk növbədə yeraltı təkanların ardıcıl iki dəfə təkrar olması və uzunmüddətli olması ilə əlaqədar olduğunu bildirib.

Eyni zamanda Qurban Yetirmişli rəhbərlik etdiyi mərkəzin ölkə ərazisində fəaliyyət göstərən seysmik stansiyaları, kompleks seysmoloji, geofiziki və geodinamik tədqiqatları zamanı istifadə olunan elmi metodikalar barədə məlumat verib.

Məruzə dinlənildikdən sonra mövzu ətrafında geniş müzakirələr aparılıb, suallar cavablandırılıb.

Seysmik aktiv bölgələrdə yerləşən dövlətlərdə zəlzələyə dayanıqlılıq məsələsinin başlıca problemlərdən biri olduğunu deyən akademik İsa Həbibbəyli bu istiqamətdə aparılacaq elmi tədqiqatların problemin həllinə öz töhfəsini verə biləcəyini söylədi. Həmçinin qeyd edib ki, ölkəmizdə "Seysmologiya" ixtisası üzrə yüksəkixtisaslı kadr hazırlığı işinə diqqət daha da gücləndirilməlidir və bu istiqamətdə doktorantura təhsilinin yaradılmasına da ehtiyac vardır.

Müzakirələrdən sonra Rəyasət Heyəti tərəfindən kompleks seysmoloji-geofiziki-geodinamik tədqiqatların daha da genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi məqsədilə respublika ərazisinin seysmik rayonlaşdırma xəritəsinin hazırlanması, mərkəzin maddi-texniki bazasının və proqram təminatının yenilənməsi və s. haqqında qərarlar qəbul edilib.



Sonra AMEA-nın Ümumi yığıncağına hazırlıq barədə məsələ müzakirə edilib. Məsələ ilə bağlı çıxış edən akademik İsa Həbibbəyli bildirib ki, AMEA-nın tarixində ilk dəfə olaraq keçmiş SSRİ Elmlər Akademiyasından qalan Ümumi yığıncaqların aprel ayında keçirilməsi ənənəsi ləğv olunub və Rəyasət Heyətinin qərarı ilə Akademiyanın bu il Ümumi yığıncağının mart ayının 16-da keçirilməsinə qərar verilib.

AMEA prezidenti bildirib ki, Azərbaycan elminin və alimlərinin nailiyyətlərini cəmiyyətə daha dolğun çatdırmaq üçün Akademiyanın cari Ümumi yığıncağının formatında dəyişiklik edilib və bir çox yeniliklər nəzərdə tutulub. Ümumi yığıncaqda "AMEA-nın 2022-ci ildə əsas elmi yekunları və qarşıda duran vəzifələr" mövzusunda əsas məruzədən başqa ilk dəfə olaraq müasir texnologiyaların imkanları ilə dəstəklənən "AMEA-da elmi kadrların hazırlanması: mövcud vəziyyət və vəzifələr", "AMEA-da elektron elmin inkişafı problemləri: gələcəyə baxış", "AMEA-nın beynəlxalq elmi əməkdaşlıq sahəsində fəaliyyəti", "AMEA-nın nəşriyyat fəaliyyəti və nəşrləri" mövzularında məruzəyə əlavələrin də müzakirəyə çıxarılacağı nəzərə çatdırılıb. Həmçinin ilk dəfə olaraq AMEA-nın elmi-tədqiqat institutlarının reytinq göstəriciləri ictimaiyyətə çatdırılacaq.

Daha sonra geniş müzakirələr aparılıb və AMEA-nın 16 mart 2023-cü il tarixində keçiriləcək Ümumi yığıncağının gündəliyi təsdiqlənib.

İclasda müzakirəyə çıxarılan növbəti məsələlər AMEA-nın elmi müəssisələrində aparılan struktur islahatları haqqında olub. Akademik İsa Həbibbəyli bildirib ki, AMEA-da idarəetmənin təkmilləşdirilməsi, paralel qurumların aradan qaldırılması, elmi istiqamətlər üzrə mütəxəssislərin vahid mərkəzdə cəmləşdirilməsi məqsədilə struktur islahatları aparılır.

İclasda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Erkən yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin ləğv edilməsi, Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin bazasında Erkən realizm və yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin yaradılması haqqında qərar qəbul olunub.

Həmçinin AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Kitabxana və elmi informasiya və Biblioqrafiyaşünaslıq şöbələrinin bazasında Kitabxana və biblioqrafiyaşünaslıq şöbəsi yaradılıb, Şərq ölkələri türkdilli əlyazmaların tədqiqi şöbəsi isə Türkdilli əlyazmaların tədqiqi şöbəsi adlandırılıb.

Bundan əlavə, AMEA-nın Rəyasət Heyətinin 16 yanvar 2023-cü il tarixli qərarına əsasən, Folklor İnstitutunun Musiqi folkloru şöbəsi ləğv edildiyi üçün institutun Elmi şurasının qərarı ilə "Qorqud" ansamblının da fəaliyyətinə xitam verilib.

Eyni zamanda müvafiq elmi-tədqiqat institutlarının təqdimatları nəzərə alınaraq AMEA-nın Bakıxanov adına Tarix İnstitutunun Atropatena-Albaniya (Qafqaz) tarixi şöbəsinin Azərbaycanın e.ə. IV - e. VII əsrinin ortaları tarixi şöbəsi, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunda isə Son Neolit və Xalkolit (Eneolit) dövrü arxeologiyası şöbəsinin isə Neolit-Eneolit dövrü arxeologiyası adlandırılması barədə qərar qəbul olunub.

Sonra Akademiyanın birinci vitse-prezidenti v.i.e., akademik-katib, akademik Arif Həşimov AMEA-nın "İlin gənc alimi" mükafatının verilməsi haqqında Əsasnaməni Rəyasət Heyəti üzvlərinin diqqətinə çatdırıb. Müzakirələrdən sonra təkliflər nəzərə alınmaqla əsasnamə təsdiq edilib.

İclasda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 90 illik və Azərbaycan ədəbiyyatşünaslıq və folklorşünaslıq elminin inkişafında mühüm xidmətləri olan AMEA-nın müxbir üzvü Kamran Əliyevin 70 illik yubileyi haqqında qərarlar qəbul olunub.

Sonra AMEA-nın Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov rəhbərlik etdiyi şöbənin prioritetləri və vəzifələri haqqında çıxış edib. Bildirib ki, "Elektron Akademiya" şöbəsi Prezident İlham Əliyevin ölkəmizdə həyata keçirdiyi dövlət siyasətinin mühüm istiqamətlərindən olan elektron idarəetmənin formalaşdırılması, rəqəmsal transformasiyalar, yeni idarəetmə texnologiyaları və sistemlərinin tətbiqi istiqamətində tədbirlərin həyata keçirilməsi sahəsində fəaliyyət göstərəcəkdir.

AMEA Rəyasət Heyətinin iclasındakı müzakirələrdə akademiklər Arif Həşimov, İbrahim Quliyev, Rasim Əliquliyev, İradə Hüseynova, Gövhər Baxşəliyeva, Telman Əliyev, Əli Abbasov, Adil Qəribov, Muxtar İmanov, AMEA-nın müxbir üzvləri Misir Mərdanov, İslam Mustafayev, Ərtegin Salamzadə və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ekologiya və ətraf mühitin mühafizəsi;**



# Xəzər dənizində suyun həcmi azalıb

## Bu, müvəqqəti haldır və ciddi fəsadlar doğurmayacaq

**Dünyanın ən qədim su hövzələrindən olan Xəzər dənizinin səviyyəsinin qalxıb-enməsi son illərdə alimlər tərəfindən ən çox müzakirə edilən məsələlərdəndir. Xəzəryanı ölkələrin iqtisadiyyatının formalaşmasında xüsusi rolu olan bu dənizin səviyyəsinin əsrin sonunadək xeyli enəcəyi bildirilir. Bəzi ekspertlər bunu yağıntıların azlığı, dənizə axan çaylarda suyun qıtlığı ilə əlaqələndirir.**

Bu problem Xəzərin təkcə Azərbaycana aid hissəsində deyil, bütövlükdə dənizdə müşahidə olunur. Qazaxıstan mediası yazır ki, bu barədə müəssisədən məlumat verilib. Qeyd edək ki, 2 il öncə Xəzərdə suyun geri çəkilməsi səbəbindən Sumqayıtda elektrik stansiyasının soyutma sistemində problem yaranmışdı və bu qurğu 500 metrədək dənizin içinə doğru yenidən quruldu. Alimlərin sözlərinə görə, iqlim dəyişikliklərinin təsirindən Xəzər dənizinin hövzəsi 9-18 metr aşağı düşəcək. Bu da ilk növbədə su anbarının ekosistemi, eləcə də milyonlarla insanın həyatı üçün geridönməz nəticələrə səbəb olacaq. Alman alimlərinin iki il əvvəl açıqladığı proqnozlara əsasən, iqlim dəyişikliyi səbəbindən qlobal dəniz səviyyəsi daim yüksəlir. Lakin Xəzər dənizinin ətrafındakı ölkələr əks problemlə - suyun səviyyəsinin aşağı düşməsi ilə üzləşirlər. Söhbət ən yaxşı halda Xəzər dənizində 9 metr azalmadan gedir. Ən pis halda isə suyun səviyyəsi 18 metr aşağı düşəcək ki, bu da Xəzər dənizinin üçdə bir hissəsinin yoxa çıxmasına səbəb olacaq. Hazırda alimlər tərəfindən əsrin sonunadək Xəzərin səviyyəsinin fəlakətli dərəcədə aşağı düşəcəyi haqda bədbin proqnozlar verilir. Xəzər dənizində suyun qalxıb-enmə məsələsi təbii prosesdir. Səviyyənin artıb-azalması hövzəyə daxil olan və oradan gedən su balansından asılıdır. Daxil olanlar əsasən çayların gətirdiyi sulardır, bir də dəniz səthinə tökülən yağıntılardır. Gedən sular isə buxarlanma nəticəsində yaranır. O da var ki, zəlzələdən sonra dənizə daxil olan yeraltı suların həcmi çoxalır. Bu amillər arasında nisbət dəyişəndə suyun səviyyəsində enmə-qalxma baş verir. Ümumiyyətlə, son 20-30 ildə Xəzərin səviyyəsində enmə müşahidə olunur. Bu prosesin də əsasını qlobal iqlim dəyişmələri nəticəsində Xəzərə tökülən çayların suyunun azalması təşkil edir. 1995-ci ildən bu günə qədər Xəzərin səviyyəsi təxminən 190 santimetr azalıb. Bu prosesin davam edəcəyi proqnozlaşdırılır. Belə ki, Xəzər dənizinin səviyyəsinin dəyişməsi dörd min il ərzində dövri xarakter daşıyır. Müşahidələr göstərir ki, təxminən 200-250 il ərzində səviyyə aşağı düşür və bir müddət sonra yenidən yüksəlir. Sonuncu ən yüksək səviyyə 1830-cu illərdə müşahidə olunub. Prosesin 200-250 il uzanacağı təqdirdə dəniz səviyyəsinin bugünkü səviyyəsindən 3 metr aşağı düşə biləcəyi təxmin edilir. Başqa sözlə, təxminən 2050-ci ilə qədər Xəzərin səviyyəsinin düşməsi gözlənilir. Azərbaycanda Xəzər dənizinin səviyyəsi hər gün iki yerdə ölçülür - Neft Daşları və Bakı buxtasında. Nəticələr göstərir ki, Xəzərin səviyyəsində enmələr davam edir. Bu ölçmələr təxminən 1837-ci ildən başlayıb. Hər 35 ildən bir Xəzərin səviyyəsi bir qədər qalxır. Əgər dəniz səviyyəsində sonuncu dəfə artım 1995-ci ildə baş veribsə, deməli, 2032-2033-ci illərdə 0,5 m-ə qədər artım mümkündür. Xəzər dənizinin səviyyəsini tənzimləmək mümkün deyil. Xəzərdə suyun azalması həmçinin bioresursların, xüsusilə dənizin spesifik balıqlarının - kütüm, nərə və s. - azalmasına, kütləvi məhvinə gətirib çıxara bilər. Avropa ilə Asiya qitələri arasında yerləşən Xəzər dünya okeanı ilə birbaşa əlaqəsi olmasa da, böyük ölçülərinə və dib qabığının quruluşunun okean tipinə görə dəniz adlandırılan göldür. Dünyadakı göl sularının 40 faizdən böyük hissəsi Xəzərdə cəmləşib. Dünya okeanı ilə birbaşa əlaqəsi olmadığından Xəzərin səviyyəsi daim tərəddüdlərə məruz qalıb. Son minillikdə Xəzərin ən aşağı səviyyəsi X əsrdə olub ki, həmin zaman onun səviyyəsi okean səviyyəsindən 35 metr aşağı imiş. Ən yuxarı səviyyə isə XIV və XVIII əsrlərdə qeydə alınıb. Sonrakı yüzilliklərdə də Xəzər dənizi səviyyəsinin enmə və qalxma dövrləri olub və əsrlik səviyyə tərəddüdlərinin amplitudu 2-4 metr diapazonunda dəyişib.

Alman və holland alimlərin Xəzər dənizində gözlənilən səviyyə dəyişmələri haqda verdikləri proqnozun nə dərəcədə özünü doğruldacağı sual altındadır. Burada dəniz səviyyəsinə təsir edən əsas amil kimi yalnız qlobal istiləşmə götürülür. Hazırda Coğrafiya İnstitutunda İsveçrənin Cenevrə Universiteti ilə birlikdə bu istiqamətdə geniş tədqiqat işləri aparılır və ilkin nəticələrə görə, ən azı 2040-cı ilə qədər Xəzər dənizinin səviyyəsindəki azalma davam edəcək. Proqnozların özünü doğruldub-doğrultmayacağından asılı olmayaraq, dəniz ekosisteminin və biomüxtəlifliyinin qorunub saxlanılması və Xəzər regionunun ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün Xəzəryanı ölkələrin üzərinə böyük məsuliyyət düşür.

**Məsələyə münasibət bildirən ekoloq Xosrov Musayev "Şərq"ə açıqlamasında deyib ki, hələ sovet vaxtında Xəzər dənizinin suyunun çəkilməsi-qabarması ilə bağlı araşdırma üçün bir ermənini gətirmişdilər. Xeyli də vəsait ayırmışdılar. Ancaq bir müddət araşdırma getsə də, axırı bir yerə çıxmadı:** "Qlobal istiləşmə öz təsirini göstərdiyi üçün Xəzər dənizində suyun həcmi azalıb. Xəzər dənizinə tökülən Volqa çayının da suyu azalıb. Xəzər dənizini qidalandıran çayların da suyu azalıb. Maraqlı orasıdır ki, həm də dənizdə buxarlanma çoxalıb. Yağıntı az düşür və buxarlanma çox olur. Amma Xəzərin suyunun qabarıb-çəkilməsi periodikdir. Yəni bir müddət çəkilmə baş verirsə, müəyyən zaman sonra qabarma olur. Uzun illərdir bu, belədir. Bunu iqlimlə, yağıntının miqdarı ilə əlaqələndirirlər, ayrı səbəb göstərə bilmirlər. Səbəblər məntiqə, ağıla söykənməlidir. Dünyada ciddi qlobal istiləşmə gedir. Bakıda neçə gündür, havanı görürsüz. İndi belə temperatur olmamalıdır axı. Bu hava qış üçün xarakterik deyil. Ona görə də güclü buxarlanma müşahidə olunur. Məsələn, şəhərin girəcəyində dəniz suyunun xeyli çəkildiyi görünür. Əvvəllər Xəzərin suyu yola yaxın idisə, indi xeyli aralanıb. Ancaq yenə deyirəm, bu, müvəqqəti haldır və ciddi fəsadlar doğurmayacaq. Xəzərin suyu bərpa olunacaq. Elə sahil ölkələri var ki, orada okean suyunun qalxması müşahidə olunur. Şimal Buzlu okeanda buzlaqların əriməsi suyun səviyyəsini qaldırıb. Amma Xəzərin çıxışı olmadığı üçün suyu əksinə, azalıb".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Zəlzələ bölgəsində vəba belə yayıla bilər

## Su tapa bilməyən insanlar gigiyenik qaydalara uyğun olmayan şəbəkə suyu içməli olurlar

**Türkiyədə baş verən dəhşətli zəlzələdən sonra yol kənarlarında yığılan zibil, içməli su çatışmazlığı və bundan qaynaqlanan gigiyena məsələləri ən böyük problemlər sırasındadır. Mütəxəssislər zəlzələdən zərər çəkən şəhərlərdə epidemiya riski ilə bağlı xəbərdarlıq edirlər ki, böyük fəlakətlərdən sonra qidalanma, gigiyena və təmiz içməli su çatışmazlığı epidemiyaya yol aça bilər.**

Qeyd edək ki, Türkiyə Səhiyyə Nazirliyi mərkəzi Kahramanmaraşda olan 7.7 bal gücündəki zəlzələdən sonra bütün bölgələrdə infeksiya və epidemiya riskinə qarşı suyun intensiv xlorlanması, ishal şübhəsi olan hallarda erkən xəbərdarlıq üçün müntəzəm nümunələrin toplanması, quduzluq və tetanoz peyvəndlərinin çadırlara paylanması kimi tədbirlər görür.

Bölgədəki zəlzələ qurbanlarını və insanları infeksiya və epidemiya xəstəlik riskindən qorumaq üçün çalışan nazirlik, zəlzələdən zərər çəkmiş əyalətlərdə İctimai Səhiyyə Koordinasiya Mərkəzləri qurub. Bundan əlavə, əraziyə 80 min 516 tetanoz peyvəndi, 3 min doza tetanus zərdabı və quduz peyvəndi göndərilib.

Türkiyəni dərindən sarsıdan və 10 vilayətdə baş verən zəlzələlərdən sonra Klinik mikrobiologiya və yoluxucu xəstəliklər mütəxəssisi, professor Serhan Sakarya zəlzələ bölgələrində keçə biləcək epidemiya xəstəliklərə qarşı xəbərdarlıq edib: "Bölgədə gigiyenik şəraitin olmaması, pis yaşayış şəraiti, qrup halında yaşamaq, bölgədəki problemlər kimi risklərə görə vəba, dizenteriya, qaşınma, bit kimi yoluxucu xəstəliklərin yayılma riski yüksəkdir. İçməli su təchizatı, şəhər kanalizasiyalarının su ilə qarışdırılması da ciddi problemlərdəndir. Bu istiqamətdə dərhal profilaktik addımlar atılmalıdır. Əks halda vəba belə yayıla bilər. Hansı ki bu xəstəliklər geniş yayılsa və ilk 6 saatda müdaxilə edilməsə, çox ciddi ölümlərə səbəb ola bilər".

Professorun bölgədəki həmkarlarından əldə etdiyi məlumata görə, uşaq və böyüklərdə çox ciddi ishal yayılıb: "Sadəcə ishal deyil, qaşınma, bit kimi parazitar xəstəliklər də sağ qalan insanlarda görülür. Yaxşı sığınacaq imkanları olmadığı, pis şəraitdə və bir-birinə çox yaxın yaşadıqları üçün bu yoluxmalar normaldır. 10 gündür bu insanlar yuyuna bilmirlər. Ona görə də yoluxmalarda artım istisna deyil".

**İnfeksionist-hepatoloq Azər Nağıyev isə "Şərq"ə açıqlamasında deyib ki, bu cür təbii fəlakət ərazilərində qrip və pnevmoniya kimi xəstəliklərin yayılma riski artır.** Su tapa bilməyən insanlar gigiyenik qaydalara uyğun olmayan şəbəkə suyu içməli olurlar ki, bu da dizenteriya riskinə səbəb ola bilər. Həkimin sözlərinə görə, dizenteriya əlamətləri və simptomları, əsasən infeksiyanın yayıldığı ərazidə ümumi təmizliyin keyfiyyətindən asılı olaraq, yüngüldən şiddətə qədər dəyişir: "Dizenteriya infeksion bir xəstəlikdir. Əksər hallarda xəstəlik kəskin başlayır. Özünü diareya (tezləşmiş nəcis ifrazı) və intoksikasiya (qızdırma, halsızlıq və s.) ilə göstərir. Bədən temperaturu tez bir zamanda maksimal rəqəmlərədək (38-40° C) yüksəlir. Bu səviyyədə bir neçə saatdan 2-5 günə qədər qalır. Bu yoluxucu xəstəlik yaşlı insanlar və kiçik yaşlı uşaqlar üçün çox təhlükəlidir və mümkün qədər tez müalicə edilməlidir. Vaxtında müalicə edilmədiyi hallarda təəssüf ki, ölümlə nəticələnə bilir. Bu ölümcül xəstəliyin yaranmasının ən vacib səbəbi yaxşı yuyulmayan tərəvəz və meyvələrdir, ən əhəmiyyətlisi isə çirkli sudur. Həm yoluxucu, həm də təhlükəli olan bu xəstəliyə tutulmamaq üçün sanitar-gigiyenik qaydalara ciddi əməl edilməlidir. Dizenteriyanın əsas simptomları yüksək qızdırma, qanlı ishal, qarında ağrı, iştahsızlıq, ürəkbulanma, qusmadır. Dizenteriya çox ciddi xəstəlikdir".

**Şəymən**

# Bakıda su onsuz da qənaətlə işlədilir

## Suyun təzyiqinin azaldılması abonentlərə əlavə problemlər yaradacaq

**Bakıətrafı ərazilərə içməli suyun verilməsi qrafikində dəyişiklik edilib. Bu barədə "Azərsu" ASC istehlakçılara xəbərdarlıq edib. "Azərsu" ASC-də sudan səmərəli və qənaətlə istifadə edilməsinə, bu sahədə təhlillərin aparılmasına dair xüsusi iclas keçirilib. İclasdan sonra müvafiq təhlil və araşdırmalar aparılıb.**



*Mirvari Qəhrəmanlı: "İsraf istixanalarda, ağac, gül, gül kolları yetişdirilən "pitomnik"lərdə baş verir. Bunlar da varlı, "arxalı" adamlara mənsubdur"*

Qərar verilib ki, suyun verilməsi qrafikində dəyişiklik edilsin. Bəzi ərazilərdə gecə suyun təzyiqi aşağı salınacaq, bəzi ərazilərdə, məsələn, qrafikə görə 14 saat su verilirsə, bu, 10 saata salınacaq, 12 saat su verilirsə, 8 saata salınacaq. Bu qrafik adətən yay aylarında tətbiq edilirdi. Amma qərar verilib ki, dəyişiklik fevral ayından olsun. Bakıətrafı bəzi ərazilərdə mərkəzləşmiş şəbəkə yoxdur. Belə ərazilərdə primitiv şəbəkə qurulub. Bu da daha çox su itkisinə səbəb olur. Yaxud mərkəzləşmiş şəbəkəsi olan, amma kanalizasiya sistemi qurulmayan yerlərdə də su itkisi var. Ona görə də belə ərazilərdə suyun verilməsində tənzimləmə olacaq. Artıq ötən həftədən yeni qrafikin tətbiqinə başlanılıb. Samur çayında su ehtiyatının 2 dəfə azalması, həmçinin "Taxtakörpü" su anbarında 50 milyon kubmetr ehtiyat qalması "Azərsu" ASC-ni buna vadar edir. Qeyd edilir ki, ötən il "Taxtakörpü" su anbarıda 180 milyon kubmetr su ehtiyatı var idi. Məlumdur ki, ölkə başçısının sərəncamı ilə Su Komissiyası yaradılıb. Komissiyanın iclasında mənbələrdən götürülən su həcmlərinə qənaət olunması qərara alınıb. Məhz itkilərin qarşısının alınması ilə bağlı qənaət rejiminə keçilib. Qərar qəbul olunub ki, ümumilikdə Ceyranbatan gölündən götürülən suyun həcmi azaldılsın.

"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri A.Cəbrayıllı KİV-ə açıqlamasında eyni zamanda abonentləri sudan qeyri-qanuni, uçotsuz istifadədən də çəkinməyə çağıraraq qeyd edib ki, israfçılığa yol verilməməlidir, qanunsuz su xətlərinin çəkilməsinə son qoyulmalıdır: "İnsanlar var, boş torpağı sulayır ki, sərinlik olsun. Hazırda təxmini 1 milyon 750 min abonentin 250 mininin sayğacı yoxdur. Sayğac olmayan ərazilərdə də böyük israfçılıq qeydə alınır. Bizim gördüyümüz bütün tədbirlər yay aylarında su qıtlığının yaşanmaması məqsədi daşıyır".

**Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatının sədri Mirvari Qəhrəmanlı "Şərq"ə açıqlamasında əvvəlcə hökumətin üzərinə götürdüyü öhdəliyi yerinə yetirməli olduğunu bildirdi:**

- Oğuzdan çəkilən su kəməri paytaxt və ətraf əraziləri 24 saat keyfiyyətli su ilə fasiləsiz təmin etməliydi. Hökumət bunu öhdəlik olaraq qəbul etmişdi. Amma öhdəliyə əməl edilmədi. Birinci növbədə öhdəliyi yerinə yetirsinlər, paytax və ətraf əraziləri keyfiyyətli su ilə 24 saat - fasiləsiz təmin etsinlər. İçməli suya az xlor vursunlar. Suya vuruluan xlor suyun keyfiyyətini yaxşılaşdırmır. Əksinə, insanlarda müxətlif xəstəliklərin yaranmasına səbəb olur. Suya o qədər xlor vururlar ki, stəkanların, su qablarının kənarları ərp bağlayır. Paytaxtda krantdan suyu birbaşa içmək mümkün deyil. Suyun keyfiyyətinə təminat yoxdur. İkincisi, Bakıda su onsuz da qənaətlə işlədilir. Kim suyu boş-boşuna açıq qoyur? Suyun israf edilməsi istixanalarda, ağac, gül, gül kolları yetişdirilən "pitomnik"lərdə baş verir. Bunlar da varlı, "arxalı" adamlara mənsubdur. Elektrik enerjisi, təbii qaz, sudan istifadəyə görə ödəniş etməyən, ödənişdən yayınan da bu adamlardır. Bakıətrafı qəsəbələrdə sadə insanlar arasında torpaq becərən, əkinlə məşğul olanlar çox azdır. "Azərsu" sudan sayğacsız istifadənin, içməli sudan texniki məqsədlərlə istifadə olunmasının, su xətlərinə qanunsuz müdaxilələrin qarşısını almalıdır. Bu, onların işidir.

**M.Qəhrəmanlı suyun təzyiqinin azaldıılmasının abonentlərə əlavə problemlər yaradacağını dedi:**

- Qış mövsümü hələ bitməyib. Havalar soyuq, şaxtalı keçir. İnsanlar evlərində kombi sistemi quraşdırıb. Çünki binaların mərkəzləşmiş istilik sistemi təminatı yoxdur. Kombilər isə alçaq təzyiqli su ilə işləmir. Kombi işləsin, mənzil isinsin deyə, abonent məcbur olacaq suyu nasosla vursun. Bu da elektrik enerjisindən daha çox istifadəyə gətirib çıxaracaq, su da daha çox işlənəcək. Bu o deməkdir ki, yeni qrafik istehlakçıların ziyanınadır. Və yeni qrafiklə suya qənaət mümkün olmayacaq. İstehlakçılar suyun verilməyə başladığı saatlarda daha çox ondan istifadə etməyə can atacaqlar, gün ərzində icra edə bilmədikləri işlərini məhz həmin saatlara saxlayacaqlar.

**Məlahət Rzayeva**

# Əsrin fəlakəti

## "Bu zəlzələ Türkiyənin başqa bir bölgəsində də olsaydı, tələfat çox olacaqdı"





## Ziyalılarımız faciəni doğuran səbəblər və oxşar dəhşətlərin təkrar yaşanmaması üçün hansı işlərin görülməli olduğu barədə danışır

**Qardaş Türkiyədəki dağıdıcı zəlzələnin ağır tablosu ziyalılarımızın gözü ilə daha aydın görünür. Zəlzələ baş verəndən sonra ölkə ziyalıları faciəni doğuran səbəblər və oxşar dəhşətlərin təkrar yaşanmaması üçün hansı işlərin görülməli olduğu barədə danışır, yazırlar. Xalq şairi, millət vəkili Sabir Rüstəmxanlının paytaxtdakı tikililər və aparılan tikintilərlə bağlı fikirləri yutub kanalında yayılıb. Canlı yayıma çıxan xalq şairi təhlükəsizlik məsələsinə diqqət çəkib, yaşayış binalarının möhkəmliyinin ciddi şəkildə yoxlanılmasının vacibliyini vurğulayıb:**

"Kimlərinsə pul qazanmaq ehtirası insanların həyatını riskə atır. Türkiyədə həmin binaları inşa edənlərin bəziləri xaricə qaçmaq istəyirdilər. Sən hansı vicdanla yaşaya bilərsən xaricdə? Cəsədlərin çoxu uçqunun altından hələ çıxarılmayıb! Təəssüf ki, Azərbaycanda da məsələlərə münasibət fərqli deyil. Cibimizi doldurmaq xətrinə insanların həyatını riskə atırıq. Bakıda, Yeni Yasamalda binaları bir-birinə o qədər yaxın tikiblər, heç arada yol da qoymayıblar. Buna necə icazə verilib, necə tikilib? Bu tikənlərin gözü ayaqlarının altını görmür?! Xırdalanda səki belə qoymayıblar. O cür gözəl yerdə yaxşı planlaşdırma ilə evlər tikilə bilərdi. Amma insanların hərəkəti üçün səkini belə düşünməyiblər. Üstəlik, 15 mərtəbəli binanın 1-ci mərtəbəsi tikilib, ikinci mərtəbədən onu sağdan və soldan 1-2 metrə qədər genişləndiriblər. Bunu özlərinə qazanc bilirlər. Bəs, başa düşmürlər ki, bu ayaqlar o yükü daşıya bilməz? Yaxud, zirzəmilər məsələsi olsun. Türkiyədə də göstərdilər bunu. Zirzəmilərdə alış-veriş yerini genişləndirmək üçün dirəkləri kəsir, sütunları doğrayırlar. Sən dirəyi kəsməklə orda yaşayanların ömrünü kəsirsən axı! Ona görə də Türkiyə zəlzələsi acı bir dərsdir. Hər kəs bunu görüb düşünməlidir. Şəxsi evlər tikənlər də buna diqqət etməlidir". Bəyənmədiyimiz sovet dövründə hündürmərtəbəli, məsələn, 9 mərtəbəli ev tikiləndə onun təməli atılırdı və yarım il gözləyirdilər ki, möhkəmlənsin. Sonra baxırdılar ki, orda neçə mərtəbəli ev tikmək olar. İndi 2 mərtəbəyə icazə alır, 5 mərtəbə tikir, 5 mərtəbəyə icazə alır, 7 mərtəbə tikir. Bunun məsuliyyətini kim daşıyır? Kim buna icazə verir? Ən keyfiyyətsiz armaturlar, aşağı səviyyəli betondan istifadə olunur. Tikintidə keyfiyyətsiz materiallardan istifadə olunur ki, ucuz başa gəlsin. Nəyə görə şəhərdə tikinti işləri ancaq müəyyən qrupların əlində olmalıdır? Burda korrupsiya, rüşvətxorluq, oğurluqla məşğul olan bir çevrə yaranıb. Müəyyən idarələrin çevrəsi var ki, oraya hər adam girə bilmir. Hər şeyi onlar həll edirlər. Mən vaxtilə Milli Məclisdə demişdim ki, Bakı, ümumiyyətlə, Abşeron Nuhun gəmisinə bənzəyir. Günün birində batacaq. Yeraltı suların üzə çıxmasına 1-2 metr qalır. Bütün Abşeronu birdən-birə su basa bilər. Belə bir şəraitdə bütün tikililər - zavodlar, fabriklər, digər müəssisələr buradadır. Üstəlik bu qədər sıx şəkildə. Yeni Yasamaldan o tərəfə Şubanı dağları var. Bir yol çəkin, tikintilərin bir hissəsini Şubanı dağlarına keçirin. Bir hissəsini Bakı-Şamaxı yoluna, digər hissəsini Ələt istiqamətində gedən yola. Verin iş adamlarına, orda yeni infrastruktur qursunlar, abadlaşdırıb bir sıra tikinti və binaları ora köçürsünlər. Niyə hamısını şəhərin içinə doldurursuz? Vaxtikən Bakının kanalizasiya məsələləri müzakirə olunanda Bakı Şəhər İcra Hakimiyyətinin başçısı mənə dedi ki, bilirsiz, bizim bəlamız odur ki, şəhərin kanalizasiyası 300 000 nəfər üçün nəzərdə tutulub, amma indi Bakıda 2 milyona yaxın adam yaşayır. Bütün sahələr belədir. Vaxtilə dairəvi yol çəkdilər. Bu yol gəlib Biləcərinin üstünə çıxana qədər qumu da tökülmüşdü. Amma bir icra başçısı o yolu satdı, orada binalar tikildi. Mənim imkanım olsa, istəyir 50 ev tikilsin, onları uçurub o yolu "Koroğlu" metrosuna qədər uzadardım. Yol qaldı yarımçıq. İndi Bakının dairəvi yolu yoxdu. Bilmirsən hardan gedəsən?!".

**Sevilən şair Aqşin Yenisey də baş vermiş faciə ilə bağlı fəlsəfi görüşlərini sosial şəbəkə vasitəsilə çatdırıb. "Şərq"ə açıqlamasında isə Aqşin Yenisey insanlara məzar olan binalar barədə fikrini bildirib:**

- Mən 6 il Türkiyədə yaşamışam. Bu zəlzələ Türkiyənin başqa bir bölgəsində də olsaydı, tələfat çox olacaqdı. Çünki bizim "sosial ev" dediyimiz və əhalinin nisbətən kasıb zümrəsinin yaşadığı binalar Türkiyədə də başdansovdu tikilir. Ankarada yaşadığımız mənzilin divarından bir gün şəkil asmalı idim. İlk mıxı vuranda divarın yarısı uçub üstümüzə töküldü. Qorxulu olan o idi ki, Ankaranın o səmtdə olan binalarının çoxu həm zahirən, həm daxilən bir-birilərinin tayı idilər. Yaxud qonşuluğumuzda bir bina tikirdilər. 2 il ərzində mülki geyimli cəmi 3 fəhlə tikdi o 6 mərtəbəli binanı. Pul xərcləmək üçün əl əməyindən də kəsirlər tikinti şirkətləri...

**Yazıçı-publisist, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli də tikililərin təhlükəsizliyi problemini önə çəkib və cavabdeh şəxslərin məsuliyyətə cəlb edilməli olduğunu deyib:**

- Türkiyədə zəlezlə ilə bağlı müzakirələrin çoxuna baxıram, dinləyirəm və belə düşünürəm: Binaları tikənlər, yəni ona məsul olanlar (yer ayıranlar, layihələşdirənlər, icra edənlər) barədə hansısa qanun olmalıdır. Yəni gələcəkdə tikilinin çökülüşü, dağıntısının bədəlini ona məsul olanlar ödəməlidirlər. Həyatda yoxdurlarsa, varisləri cavabdehlik daşımalıdır. Çünki xələfləri onlar üçün çalışıblar. Ədalətsiz görünə bilər. Yəni oğul ataya görə məsuliyyət daşımır. Məncə, gələcək bəlalardan qorunmağın məqbul variantlarından biridir. Çünki hamı gələcək üçün cavabdeh olmalıdır...

Dağıntılar altından çıxarılan adamları, xüsusən də körpələri görəndə təzadlı hisslər keçirirəm. Bir tərəfdən onların sağ qalmasına sevinirəm, o biri tərəfdən isə kövrəlirəm. "Yazıq körpə! Görən, ata-anası da sağdırmı, yoxsa yetim qalacaq?" Bu sualı da, köhnə kişilər demiş, ev adamı verir. Əslində bu, sual deyil, bir ürək yanğısıdır, sadəcə ucadan deyir. "Ata-anadan yetim qalsa da, dövlətdən, millətdən yetim qalmaz!" deyirəm. Və istər-istəməz 2000-ci ilin payızını xatırlayıram. Buna oxşar fəlakəti, faciəni o zamanlar biz də yaşamışdıq. Amma bu miqyas da yox. O vaxt mənim də uşaqlarım körpə idi. Orxanın 5, Leylanın 9 yaşı vardı. Uşaqlar anaları ilə məndən qabaq həyətə düşmüşdülər. Anaları heç nəyə baxmadan uşaqlarını götürüb həyətə qaçmışdı. Mən aşağı enəndə həyət adamlarla doluydu. Hamının üzündə həyəcan, təlaş və qorxu vardı. Orxan ağlayırdı. "Niyə ağlayırsan?" deyə soruşdum, arxasınca da "qorxma" dedim. "Mən xəncərimi istəyirəm!", "Neynirsən onu?", "Onu öldürəcəm. O yerin altı ilə gəzir, onu xəncərlə vursaq, bizdən qorxar və qaçıb gedər!". Düzü, uşaq bunu fəhmlə dedimi, yoxsa televiziyadan, ya hardansa öyrənmişdi ki, zəlzələ torpağı yarıb çıxsa, sakitləşər. Mən həyat yoldaşımın və qonşuların israrlı etirazlarına baxmayaraq evə çıxdım və divardan asılmış xəncəri gətirib Orxana verdim, o da sakitləşdi. Həmin suvenir xəncəri mənə rəhmətlik yazıçı dostum Eyvaz Əlləzoğlu bağışlamışdı. Sözüm, əlbəttə, bunda deyil, yəni bu hadisə ilə bağlı deyil. Sadəcə düşünürəm ki, əli qələm tutan adamlar bu bəşəri fəlakətdən yazmalıdırlar. Ən azı, tarixə şahidlik eləmək üçün. Mən neçə gündür, havalı kimi gəzirəm, uçqunların altında qalan insanlara kömək üçün əlim çatmır. Amma köməyə gedənlər var olsunlar. Dövlətimizin, türk qardaşlarımızın başı sağ olsun. Və mən uçqunların altından çıxarılan, xilasedicinin qucağına sığınan, quş kimi əllərini çırpan o körpəni heç cür unuda bilmirəm və beynimdə, canımda onun və doğmalarının düşdüyü vəziyyəti təsəvvür etməyə çalışıram. Mənim nəvəm Dəniz də Türkiyədədir (İstanbulda). O da həmin körpə yaşındadır və onun kimi ağbəniz və sarışındır. Adamın ürəyi dağlanır. Allah qorusun! Şəhərimizdə köhnə beşmərtəbələr sökülür, yerində çoxmərtəbəli binalar tikilir. Özü də bir-birinin "qarnında". Və mən gələcəyimiz üçün qorxuram. Tanrı dünyamızı qorusun və günahlarımızı bağışlasın!

**Məlahət Rzayeva**

## Gözə çay paketi qoymaq olarmı?



**Oftalmoloq və teleaparıcı Mixail Konovalov konyunktivitin müalicəsi ilə bağlı üsulun faydasız olduğunu deyib.**

"Medicina" xəbər verir ki, həkim efirdə gözə çay paketləri qoymaqla kompreslər və bal damızdırmaqla edilən müalicələrin ümumi göz xəstəliyindən qurtulmağa kömək etmədiyini bildirib.

O, çay paketi kompreslərinin nəinki konyunktiviti sağaltmayacağını, əksinə zərərli ola biləcəyini deyib: "Göz qapağına isti çay paketi qoysaq, əksinə isti mühit bakteriyaların çoxalmasına şərait yaradacaq".

Həkim əlavə edib ki, əgər insan açıq gözünün üstünə çay paketi qoysa, o zaman buynuz qişanın eroziyası yaranır.

M.Konovalov konyunktivitin müalicəsi üçün başqa bir təsirsiz və təhlükəli üsulun gözə bal damızdırmaq olduğunu bildirib: "Bal bakteriyalar üçün çoxalma yeridir, bəzi insanlarda allergik reaksiya yarada bilər.


### Elanlar

"Fresh Logistics" MMC-yə məxsus Dövlətlərarası keçid üçün lazım olan, Rusiya üçüncü ölkə təmiz icazə blankı ( Sənədin nömrəsi: 66406) itmişdir.
Əlaqə nömrəsi: +994 77 320 68 28

Kərimova Sevinc Qurban qızına "Binəqədi-İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən, Binəqədi rayonu, 8-ci mikrorayon, Ş.Məmmədova küç., ev №8, 4-cü mərtəbəsində yerləşən blok 1, mənzil 9, 78.5 m2, 2 otaqlı mənzilin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Xətai rayonu, Əhmədli qəsəbəsi, M.Hadi küçəsi 2372 ünvanında yerləşən Dadaşov Əlövsət Rəhman oğluna məxsus "Laura" firmasının binasında B girişində, 1-ci mərtəbə 330 kv.m., 2-ci mərtəbə 330 kv.m. qeyri-yaşayış sahəsinə aid müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

### Bildiriş

"Araz-İnşaat" ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağının çağırılması
1. "Araz-İnşaat" ASC-nin ümumi yığıncağının keçirilməsi vaxtının və yerinin təyin edilməsi barədə
2. "Araz-İnşaat" ASC-nin ümumi yığıncağının keçirilməsi haqqında səhmdarlarının məlumatlandırılması qaydası barədə
3. "Araz-İnşaat" ASC-nin ümumi yığıncağının gündəliyi.
1. 2020-ci ilin hesabatının təsdiqi
2. "Araz-İnşaat" ASC-nin təşkilatı məsələlər
3. Cari məsələlər
28.03.23
"Araz-İnşaat" Açıq Səhmdar Cəmiyyətinin
İdarə Heyətinin sədri
Müftəlimova S.

### Elan

Nəzərinizə çatdırırıq ki, biz "Gulf Velding Services Est" MMC şirkətini 10.02.2023-cü il tarixindən satmışıq. Tərəfimizdən bütün ödənişlər tamamlanmışdır. Kiminsə ödənişlə bağlı şikayət və təklifləri varsa göstərilən tarixdən 5 iş günü ərzində bizə müraciət edə bilər.





## "Mən elə iqtidarın özüyəm"

### Qəşəm Nəcəfzadə: "Kəramət Böyükçöl də müxalifət deyil..."

**"Mən iqtidara meyillənmirəm, elə iqtidarın özüyəm". Bunu "Şərq"ə açıqlamasında tanınmış şair Qəşəm Nəcəfzadə deyib. O bildirib ki, oğlu Kəramət Böyükçöl də müxalifət deyil, sadəcə, fikir ayrılıqları var:** "Kəramət hansısa hadisəyə fərqli münasibət bildirir. O vətənini, dövlətini və xalqını hamıdan çox sevir. Hətta kitablarını sataraq Türkiyədəki zəlzələ ilə bağlı 1000 manat yardım belə edib. Mən və Kəramət çox şadıq ki, cənab Prezident İlham Əliyev və birinci-vitse prezident Mehriban xanım Əliyeva bizə mənzil bağışlayıb. Bu, hakimiyyətin mədəniyyət xadimlərinə və ziyalılara diqqətinin bir nümunəsidir. O ki qaldı iddialara, hamısı boş şeylərdir. Yerindən duran uşaq-muşaqlar feysbukda status paylaşır. Kəramət Azərbaycanın ləyaqətli bir oğludur. Mən həmişə onunla fəxr etmişəm. İndi də durub ondan yapışırlar. Bunlar düzgün söhbət deyil. Kimə mənzil bağışlanırsa, sadəcə sevinmək lazımdır. Bir daha cənab Prezidentə və Mehriban xanıma özümün və ailəm adından təşəkkür edirəm".

*Qeyd edək ki, Azərbaycanın birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva şair, publisist Qəşəm Nəcəfzadəyə mənzil hədiyyə edib. Bu barədə Q.Nəcəfzadə özünün feysbuk hesabında post paylaşıb. Şairin sözlərinə görə, ona bağışlanan ev Bakı şəhərindədir.*

*Məlum xəbərdən sonra bəziləri bunun siyasi gediş olduğunu iddia ediblər. Hətta "Bu necə olur, ata iqtidar, oğul müxalifət" sualını ünvanlayanlara da rast gəlmək olur.*

**Nihat Müzəffər**

## "Azərbaycanda 160 mindən çox müəllim işləyir"

### "Türkiyədəki zəlzələdən əziyyət çəkənlərə dəstək məqsədilə 1 manatdan pul toplansa, böyük bir büdcə formalaşar"



**"Türkiyəyə yardım etmək üçün müəllimlərin əməkhaqqından pul tutulması ilə bağlı sosial platformalar üzərindən informasiyalar yayılır".**

*Bu sözləri "Şərq"ə təhsil eksperti Elçin Əfəndi deyib. Onun sözlərinə görə, müəllimlərin üzərinə bir məcburiyyət düşüb:*

"Əslində proses könüllülük prinsipi əsasında həyata keçirilməlidir. Amma görürük ki, konkret şablon hazırlanıb. Düzdür, Elm və Təhsil Nazirliyi (ETN) bunu təkzib edib. Amma istənilən halda, ETN-in məlumatı olmasa belə, qurumun tabeliyindəki hər hansı təşkilatın mütləq ki, xəbəri var.

Bilirik ki, müəllimlərin işi məşəqqətlidir. Onların əməkhaqlarının qədərindən də xəbərdarıq. 6 fevraldan bu günə qədər imkan daxilində Türkiyəyə yardımlar göstərməyə də çalışıblar".

Mütəxəssis vurğulayıb ki, Azərbaycanda 160 mindən çox müəllim işləyir: "Nəticə etibarilə, hərəsi 1 manatdan pul toplasalar, kifayət qədər məbləğ yığılar, böyük bir büdcə formalaşar. Lakin məcburiyyət doğru deyil. Bunu həqiqətən könüllülük əsasında etməlidirlər. Yaxud da Pedaqoji Şurada yardımla bağlı ödəniş məsələsi müzakirəyə çıxarılmalıdır. Yalnız Şuranın müsbət rəyi olduğu halda pul yığıla bilər. Əks təqdirdə, hər bir müəllimə ərizə yazdırmaq, əməkhaqqıdan tutmaq yolverilməzdir. Düzgün yanaşma deyil".

*Qeyd edək ki, bu barədə təhsil eksperti Kamran Əsədov sosial şəbəkədə paylaşım edib. O yazır: "Elm və Təhsil Nazirliyi yanında İctimai Şurada təmsil olunan Azərbaycan Gənc Müəllimlər Assosiasiyası (AGMA) adlı QHT belə bir rəsmi ərizə forması tərtib edib, məktəblərə yollayıb. Məktəb direktorları da ETN yanında İctimai Şuranın adını görüb, həmçinin buna nazirliyin rəsmi şəxslərinin də təzyiqi var, onsuz da sosial qayğılar, maddi ehtiyaclar içində boğulan müəllimlərə "könüllü" olaraq imzaladırlar".*

**Sücayət Mehti**

## 21 hektar torpaq İrana verilib?

### Tural Səfərov : "Əgər ortada cinayət faktı aşkar edilsə, Vasif Talıbov məsuliyyətə cəlb edilməlidir"



**"Azərbaycanın bir qarış torpağını belə başqa ölkəyə hədiyyə etməyə heç kəsin səlahiyyəti yoxdur".**

Bunu "Şərq"ə açıqlamasında "TNS" İnformasiya Agentliyinin baş redaktoru, naxçıvanlı jurnalist Tural Səfərov Vasif Talıbovun Şərur rayon Ərəbyengicə kəndinin ərazisindən 21 hektar torpağın qonşu İran İslam Respublikasına (İİR) verməsi ilə bağlı iddialara münasibət bildirərkən deyib.

Baş yazar qeyd edib ki, dövlət sərhədlərinin dəyişdirilməsi yalnız referendum yolu ilə həyata keçirilə bilər: "Məsələ çox ciddi şəkildə araşdırılmalıdır. Araz çayı sahilində ölçmə işləri aparılmalıdır. Ümumiyyətlə, SSRİ ilə İran arasındakı delimitasiya və demarkasiya işləri 1956-cı ildə aparılıb. Bununla bağlı 1957-ci ildə protokol imzalanıb. Dövlət sərhədləri isə həmin protokolun əsasında müəyyən edilib. Düzdür, zaman-zaman Araz çayı öz axınını dəyişdirir. Hətta bir müddət əvvəl ölçmə işləri aparılmışdı və çayın məcrasını dəyişməsi nəticəsində 610 hektar bizim ərazidən İrana, 600 hektar isə İrandan bizim əraziyə keçmişdi".

**T.Səfərovun sözlərinə görə, Vasif Talıbova məlumat verilməsinə baxmayaraq, həmin ərazidə məqsədli şəkildə sahilbərkitmə işlərinə icazə verilməyib:** "Görünür, Talıbovun 21 hektar torpağın İrana verilməsi ilə bağlı şəxsi planları var imiş ki, həmin ərazidə sahilbərkitmə işlərinə icazə verməyib. Digər tərəfdən, ərazi niyə verilib? Burada cənub qonşumuzun qazancı nədir kimi suallar yaranır? Ümumiyyətlə, sözügedən ərazi Araz çayının ən dayaz və ensiz nöqtəsidir. Oradan zamanla narkotrafik kimi də istifadə olunub. Ola bilər ki, bu narkotrafikdən daha yaxşı istifadə etmək üçün proses baş verib. Lakin bunlar ehtimallardır. Ən doğru məlumat araşdırmalardan sonra üzə çıxacaq. Əgər ortada cinayət faktı aşkar edilsə, Vasif Talıbov məsuliyyətə cəlb edilməlidir".

**Nihat Müzəffər**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 442



## 222 saat sonra möcüzə

### Məlikə İmamoğlu sağ çıxdı

**Bazar ertəsi, fevralın 6-da Kahramanmaraşda iki güclü zəlzələ yaşandı. İlk zəlzələ saat 04:17-də Pazarcık rayonunda 7,7 bal gücündə olub. Bu zəlzələdən sonra saat 13.24-də növbəti zəlzələ baş verib. Episentri Elbistan rayonunda olan zəlzələnin maqnitudası 7,6 bal olub.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, zəlzələ, Kahramanmaraş, Kilis, Diyarbəkir, Adana, Osmaniye, Qaziantep, Şanlıurfa, Adıyaman, Malatya və Hatayda böyük dağıntılara səbəb olub. Zəlzələnin baş verdiyi əyalətlərə çoxlu sayda axtarış-xilasetmə qrupu göndərilib. Zəlzələdən 10 gün sonra dağıntılar altından möcüzə xəbərləri gəlməyə davam edir. Kahramanmaraşda baş verən zəlzələdən 222 saat sonra dağıntılar altından bir qadın xilas edilib.

Onikisubat rayonunda dağıntılar üzərində işləyən qruplar Məlikə İmamoğlunun sağ olduğunu müəyyən edib. Qadının yeri müəyyən edilib. Xilasetmə qruplarının gərgin iş nəticəsində çıxardığı 42 yaşlı Məlikə İmamoğlu xəstəxanaya aparılıb.

**Turan**

## Kim Çen İndən qızına jest

### Şimali Koreyanın növbəti lideri kim olacaq?



**Beynəlxalq ictimaiyyətin reaksiyalarına baxmayaraq, ölkəsinin nüvə silahı və ballistik raket proqramını davam etdirən Şimali Koreya lideri Kim Çen İn qızı Kim Ju-Ae ilə çəkdirdiyi şəkilləri rəsmi markalarda çap etdirib.**

Dövlət tərəfindən idarə olunan "Korea Stamp Corp". şirkətinin saytında verilən məlumata görə, markaların cümə günündən etibarən istifadəyə veriləcəyi bildirilir.

Təxminən 10 yaşında olduğu güman edilən Kim Ju-Aenin şəklinin rəsmi markalarda yer alması onun atasının varisi ola biləcəyi ilə bağlı şayiələri artırıb. Markalarda çap olunan fotoşəkillərdə Kim və qızı raket sınaq meydançasında və fotosessiya mərasimində əks olunub.

**Turan**

## Tacikistanda qar uçqunu nəticəsində azı 10 nəfər həlak olub



**Tacikistanda qar uçqunu nəticəsində azı 10 nəfər həyatını itirib.**

Tacikistan Fövqəladə Hallar Komitəsi xəbər verir ki, hadisə fevralın 15-də Düşənbə-Varzob avtomobil yolunun 65,8-ci kilometrində baş verib. Qar uçqununun altında dörd minik avtomobili qalıb, sürücülərdən biri həlak olub.

Təbii fəlakət, həmçinin respublikanın şərqində yerləşən Dağlıq-Badaxşan muxtar vilayətində doqquz nəfərin həyatına son qoyub. Ölüm hallarının səkkizi vilayətin inzibati mərkəzi - Horoq şəhərində, biri isə Vanc rayonunda qeydə alınıb.

## Səudiyyə Ərəbistanı kosmosa qadın göndərir



**Səudiyyə Ərəbistanı bu il kosmosa göndərəcəyi astronavtları müəyyənləşdirib. Maraqlıdır ki, kosmosa göndərəcəyi astronavtlardan biri qadındır. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, bu barədə Səudiyyə Ərəbistanının dövlət agentliyi SPA məlumat yayıb. Məlumatda qeyd edilir ki, 2023-cü ilin ikinci yarısında Səudiyyə Ərəbistanının kosmosa göndərməyi planlaşdırdığı AX-2 kosmik gəmisini qadın astronavt Rayyane Bernavi ilə kişi astronavt Əli Qarni idarə edəcək. Kosmik gəmi ABŞ-dən yola salınacaq. Səudiyyə Ərəbistanında kosmosun öyrənilməsi proqramı çərçivəsində daha bir qadın astronavt - Məryəm Firdevsə də təlim keçiləcək.**

**Məlahət**

## Tolga Çevik 1 milyonluq ianə edib



**Türkiyədə baş verən güclü zəlzələdən sonra zərərçəkənlərə edilən yardım kampaniyasına ianələr gəlməkdə davam edir.**

**Axşam.az xəbər verir ki, növbəti yardım aktyor Tolqa Çevikdən gəlib. O, yardım üçün 1 milyon lirə bağışlayıb.**

**Bundan başqa, aktyor Torontodakı konsertini ləğv edib.**



# Zəlzələ kəndi iki yerə böldü

## "Biz qiyamətin gəldiyini düşünürdük"





**Kahramanmaraşda baş verən zəlzələlərin kəndlərə vurduğu ziyan havadan çəkilən görüntülərlə üzə çıxıb.**

Qaziantep Nurdağının Gökçedere kəndində qəbiristanlıqda, eləcə də evlərdə və yollarda böyük çatların olduğu görünüb.

"Şərq" türk mediasına istinadən xəbər verir ki, qırılmalar qəbiristanlıqda yarıqların yaranmasına, bəzi qəbirlərin zədələnməsinə və daşların parçalanmasına səbəb olub.

Kənd sakinləri evlərini boşaldıblar.

Gökçedere kəndində doğulub böyüdüyünü bildirən Nuri Cihan kəndlilərin traktor və kürəklərlə yarılan yolları bağlamağa çalışdıqlarını bildirib.

"Zəlzələ başlayanda qiyamətin qopacağını düşündük. Sanki kənd iki yerə bölündü. Uşaqlarla çölə çıxmağa çalışdıq. Qonşunu və qardaşımı çıxardıq. Bunlar zəlzələnin səhəri günü meydana gəldi. Qayıtdıq, gördük ki, əmim oğlunun evi dağılıb. Bir tərəfdən yağış yağırdı, nə baş verdiyini anlamağa çalışırdıq. 3-4 saatdan sonra vətəndaşlar dağıntıların altından cəsədləri çıxardı.

Nuri Cihan sözünə davam edir, "İlk gün kömək baxımından çətin oldu, onsuz da kimsə çata bilmədi. Hər kəsin öz problemləri var idi. Sonra məzarları gördük. Allah hamıya kömək olsun. Əlimizdən heç nə gəlmir, təbii fəlakətdir. Hər kəs öz imkanları ilə - kimisi traktorlarını, kimisi də kürək bellərini gətirib yolu açdıq. Bacardıqca qəbirləri düzəltməyə çalışdıq. Yarıqlar çox açıq idi, yağış yağırdı və zamanla təkanlar olduqda bağlanmağa başladı".

**Turan**



# Hüzn günü

## Adıyaman xilaskar Proteo ilə vidalaşdı





**Adıyamanda meksikalı xilasedicilərin xilasetmə işləri zamanı tələf olmuş Proteo adlı axtarış iti üçün vida mərasimi təşkil edilib. Proteo Meksikadan Türkiyəyə yardıma gələn 150 nəfərlik xilasedici komandada yer alırdı. Axtarış iti olan Proteo Adıyamanda dağıntılar altından 3 nəfərin sağ çıxarılmasına yardım edib.**

"NTV.com.tr" xəbər verir ki, Proteonun təlimçisi Juan Carlos Villeda Marquez Türkiyənin kədərini paylaşdığını söyləyib: "Zəlzələ bizi çox kədərləndirdi. Türkiyənin bu kədərinə biz də, bütün Meksika xalqı üzülürük. Bura bizi ordumuz göndərdi. Qardaş ölkəyə dəstək olmağa, insanları dağıntılar altından xilas etməyə gəldik. Burada türk xilasedicilərlə birgə çalışırıq". J.Marquez orduda itlərin təlimçisi olaraq çalışdığını deyib. Xilasetmə işlərində ən böyük yardımçısının Proteo adlı it olduğunu söyləyib: "Proteo bizim ən yaxın dostumuz, ən yaxın köməkçimizdi. Onunla Haiti, Qvatemala, Ekvador və daha bir neçə ölkədə əməliyyatlarda iştirak etmişdik. Türkiyədə isə Proteo son vəzifəsini yerinə yetirdi". J.Marquez Proteonun timsalında can dostunu itirdiyini bildirib. "Çox üzgünəm. Gözlərim yaşarır. Bir çox əməliyyatlarda birgə çalışmışdıq. Proteo xilasetmə işlərində usta köpək idi. Onun yardımı ilə insanların yerini müəyyənləşdirib, dağıntılar altından çıxara bildik. O, xilasedici idi. Bu itki bizi çox üzdü". Proteo Adıyamandakı düşərgə yaxınlığında torpağa basdırılıb. Hazırda AFAD çadır şəhərciyində qaldıqlarını deyən J.Marquez can dostunu Adıyaman torpağına tapşırıb gedəcəklərini, onu daim xatırlayacaqlarını söyləyib.

**Məlahət**

## İlon Mask: Bərpaolunan enerji mənbələrinə keçid 30-40 il vaxt aparacaq



**Ənənəvi enerji mənbələrindən bərpaolunan enerji mənbələrinə tam keçid yaxın zamanlarda mümkün deyil və buna on illərlə vaxt lazımdır.**

Azərtac xəbər verir ki, bu barədə amerikalı biznesmen İlon Mask Dubayda keçirilən Dünya Hökumətləri Sammitində videoəlaqə vasitəsilə çıxışı zamanı deyib.

"Bərpaolunan enerji mənbələrinə, külək və günəş enerjisinə, elektrik avtomobillərinə keçidin başladığı aydındır. Bu sahə sürətlə inkişaf edir, lakin ənənəvi enerji mənbələrinə əsaslanan hazırkı iqtisadiyyatın böyük sənaye bazası var. Hətta bu gündən başlayaraq dünyada istehsal olunan bütün avtomobillər elektrik mühərriki ilə buraxılsa belə, hazırda istifadədə olanların dəyişdirilməsi 20 il vaxt aparacaq", - deyə İlon Mask bildirib.

## Zeytun yağı yaddaşı möhkəmləndirir



**Səhər yeməyi zamanı 1 çay qaşığı zeytun yağı qəbul etmək bir çox səbəbdən faydalıdır.**

Yunanıstan alimlərinin apardıqları tədqiqatların nəticələri göstərir ki, zeytun yağından istifadə yaddaşın möhkəmlənməsinə kömək edir. Xüsusən onun qəbulu demensiyanın, o cümlədən Altsheymer xəstəliklərinin inkişafı ilə assosiasiya yaradan baş-beyin hüceyrələrində düyünlərin cəmlənməsinin azalmasına səbəb olur.

Azərtac tibbi saytlara istinadla xəbər verir ki, zeytun yağı sümüklərin vəziyyətini yaxşılaşdırır. Onun tərkibində sümük və oynaqların sağlamlığı üçün zəruri olan xeyli mikroelementlər var. Əgər o, rasionda omeqa-3 yağ turşuları ilə zəngin digər ərzaqlarla uyğunlaşırsa, o halda nəticələr daha nəzərəçarpan ola bilər. Bu ərzaqlar artrit zamanı xüsusən effektlidir.

İltihabı azaldır. Tədqiqatlar sübut edir ki, zeytun yağı və omeqa-3 tərkibli ərzaqlar iltihaba qarşı mübarizədə kömək edə bilər. Həmçinin xroniki iltihabi xəstəliklər zamanı vəziyyəti yaxşılaşdıraraq fayda gətirir.

Bağırsaqların sağlam fəaliyyətinə kömək edir. Səhər yeməyi zamanı 1 çay qaşığı zeytun yağı yeməyə bu səbəb sizdə maraq oyada bilər. Belə vərdiş bağırsağı qəbizlikdən müdafiə edir. Dərinin xarici görünüşünü yaxşılaşdırır. Təsadüfi deyil ki, dəri üçün kremlərin əksəriyyətinin tərkibində zeytun yağı var. Bu yağın antibakterial və iltihabəleyhinə xassəsindən dəridə şiş, qızartı və qırışlar zamanı müvəffəqiyyətlə istifadə etmək olar.